# DÜŞÜNƏN İNSAN

№ 11 - İyul 2012 - 2 AZN



## Allahın bütün müsəlmanlara əmri:

# İSLAM BİRLİYİ

## üçün mübarizə aparmaq

- Qan təzyiqinə nəzarət edən qüsursuz sistem
- Vicdan sahibi insanlara çağırış
- Müsəlman qəlbində daim Allahla bərabərdir
- İslam torpaqlarında baş verənlər axırzaman əlamətləridir
- İslamda təhsilə verilən əhəmiyyət

## 2 FİLM HƏDİYYƏ

İNSANIN YARADILIŞI

GÖZDƏKİ MÖCÜZƏ


HARUN YƏHYA KİTABLARI
İNDİ DAHA UCUZ QİYMƏTƏ
YUSİF PEYĞƏMBƏR
Harun Yəhya (Adnan Oktar)
2.70 AZN
MÜSƏLMANIN 24 SAATI
2.80 AZN
DİNİMİZİ ÖYRƏNƏK
2.80 AZN
CƏNNƏT
2.50 AZN
ALLAH SEVGİSİ
HARUN YƏHYA
3.30 AZN
QURANDA DUA
Harun Yəhya (Adnan Oktar)
2.50 AZN
ÖLÜM QİYAMƏT CƏHƏNNƏM
3 AZN
HARUN YƏHYA
QURAN MÖCÜZƏLƏRİ
5.75 AZN
ŞEYTAN
Harun Yəhya (Adnan Oktar)
2.70 AZN
XALQLARIN HƏLAKI
3.20 AZN
ХАРУН ЯХЬЯ
ЧУДО КОРАНА
5.75 AZN
QLOBAL MASONLUQ
3.10 AZN
DÜNYA HƏYATININ HƏQİQƏTLƏRİ
HARUN YƏHYA
3.40 AZN
GLOBAL PUBLISHING
SİFARİŞ ÜÇÜN:
globalkitab@gmail.com
Tel: (050) 466 20 20

DÜŞÜNƏN İNSAN - İyul 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat No 3418

# DÜŞÜNƏN İNSAN

## içindəkilər

*DÜŞÜNƏN İNSAN ; İYUL 2012*


| | |
|---|---|
| Heydər Əliyev və İlham Əliyev milli-mənəvi dəyərlər haqqında | 3 |
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| Sonsuz nemətlər | 16 |
| Müsəlmanların mübarizəsi Quran əxlaqına uyğun olmalıdır | 18 |
| Vicdanınızı nə qədər dinləyirsiniz? | 20 |
| Yataraq həyatda qalan canlılar | 24 |
| Ən təbii dezinfeksiya edici: göz yaşı | 30 |












# içindəkilər




| | |
|---|---|
| Vicdan sahibi insanlara çağırış | 48 |
| Tənəffüs etdiyimiz hava hər səhər necə təmizlənir? | 50 |
| Bir ayə, bir açıqlama | 53 |
| Müsəlman qəlbində daim Allahla bərabərdir | 54 |
| Sahib olduğunuz hər şeyi Allahın nemət olaraq verdiyini əsla anlamazlıqdan gəlməyin | 58 |
| İmam Qəzali | 60 |
| İslam torpaqlarında baş verənlər axırzaman əlamətləridir | 62 |
| Fosillər təkamülü təkzib edir | 63 |





















“Qurani-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir”.

**Heydər Əliyev**

"Azərbaycan xalqı və Azərbaycan İslam dünyasının ayrılmaz parçasıdır. Bu, bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifikasiyamızdır. Bizim milli dəyərlərimiz islam dəyərləri əsasında formalaşıbdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, saxlamalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir".

**İlham Əliyev**





# Elmi-Texnoloji Xəbərlər

## YENİ BİONİK GÖZ

ABŞ-dan olan elm adamları işıq enerjisi ilə işləyən bionik göz icad ediblər.
Stenford Universitetinin elm adamları tərəfindən hazırlanan və "Nature Photonics" jurnalında dərc olunan bionik göz haqqında məqalə mövcud göz protezlərində batareyadan istifadəyə son qoyacaq, eyni zamanda, daha yaxşı görmə qabiliyyəti qazandıracaq.

Bionik göz xəstənin taxdığı xüsusi eynəklərlə infrared şüaları gözə istiqamətləndirir. Protez bu şəkildə işə düşür və görmə qüsurlu şəxsə bütün lazımi məlumatları ötürür.

Tor qişa protezlərindən gözün arxasındakı sinirləri hərəkət etdirmək üçün istifadə edilir. Bu, bəzi xəstələrə müəyyən səviyyəyə qədər görmə qabiliyyəti qazandırır. Ancaq bu cür protezlərdə tor qişanın arxasına bir mikroçip, qulağın arxasına isə batareya yerləşdirilməlidir. Çip ilə cihaz arasındakı rabitə kabel vasitəsilə təmin olunur.

Elm adamları yeni metodla mürəkkəb elektron avadanlıq və kabeldən xilas olacaqlarını bildiriblər.

## Solar lövhədən fərqi yoxdur

Yeni bionik gözdə tor qişanın arxasına yerləşdirilən hissəcik solar lövhə kimi işləyir. Görmə qüsurlu şəxsin taxdığı kameralı eynək qarşısındakı görüntünü qeyd edir və tor qişadakı mikroçipə yaxın infrared şüa göndərir. Beləliklə, sinirlərə ötürülən elektrik impulsu əmələ gəlir. Bu metoddan istifadə edilməsinin səbəbi təbii işığın protezi işə salmaq üçün lazımi enerjinin sadəcə 1000-də 1-ini verməsidir.
Tədqiqat qrupuna daxil olan elm adamları "fotovoltaik protezin incə və kabelsiz olması protezi yerləşdirmək üçün əməliyyat prosesini daha da asanlaşdıracaq. Tor qişa xəstəliklərinə görə görmə qabiliyyətini itirən xəstələr yeni protez sayəsində kifayət qədər görmə qabiliyyəti qazanacaqlar" şəklində açıqlama veriblər. Hələ insanlar üzərində sınaqdan keçirilməmiş bionik göz siçanlar üzərində tətbiq ediləcək.

## Öz kök hüceyrəsindən damar hazırlandı

İsveçdə dünyada ilk dəfə bir xəstəyə öz kök hüceyrələrindən hazırlanmış damar köçürməsi əməliyyatı uğurla həyata keçirilib.
İsveçdə ciddi damar tıxanması problemindən əziyyət çəkən 10 yaşlı qıza öz kök hüceyrələrindən hazırlanan damar əməliyyatla köçürülüb.

Elm adamları ölü xəstədən götürüldükdən sonra bütün hüceyrələrdən təmizlənərək sadəcə boş boru formasına salınan 9 sm uzunluğundakı damarda qızdan götürülən sümük iliyi hüceyrələrini 2 həftəlik proseslə böyüdərək damar hasil etməyi bacarıblar.

Yeni damarı xəstəyə köçürən həkimlər damarın öz kök hüceyrələrindən hazırlandığına görə, xəstəyə toxuma uyğunsuzluğunu aradan qaldıran dərman vermək məcburiyyətində qalmayıblar.

İsveçdəki Qoteborq Universitetindən Suçitra Sumitran-Holqerson və həmkarlarından ibarət qrupun İsveç hökumətinin maddi dəstəyi ilə həyata keçirdiyi elmi fəaliyyət İngiltərənin ən tanınmış tibbi jurnallarından olan "Lancet"in internet səhifəsində dərc olunub.
Sumitran-Holqerson mövzu ilə bağlı verdiyi açıqlamada: "Bu, xəstələrə məxsus orqanlar hazırlayan toxuma mühəndisliyinin gələcəyidir", - deyib.



## AQRESSİV KREVET TİBBDƏ YENİ CIĞIR AÇA BİLƏR

Kiçik ölçüsünə baxmayaraq, dünyada ən möhkəm, öldürücü zərbələr endirməsilə tanınan mantis kreveti elm dünyasında böyük irəliləyişə səbəb ola bilər. Mantis kreveti qısqacları ilə 50 kq-lıq güclü zərbə vura bilir. Bu rəqəm krevetin çəkisindən yüz dəfələrlə çoxdur. Sakit okeanı və Hind okeanı adaları bölgəsində kütləvi şəkildə yaşayan krevetin düşmənlərinə qollarını sovurma sürəti 5.56 mm-lik gülələdən istifadə edən tüfəngin sürətinə bərabərdir.

Sinqapurun Nanyanq Texnologiya Universitetində (NTU) mantis krevetləri üzərində aparılan tədqiqat keramikadan polad jiletə qədər bir çox əşyanın daha möhkəm və davamlı hazırlanmasına təşviq edir.

NTU-də akademik Ali Miserezin kiçik dəniz canlısı olan mantis krevetini təhlil edən araşdırması bir çox protezdə istifadə edilən keramika və metalların bu gün olduğundan qat-qat möhkəm hazırlanmasına kömək edə bilər.

Mantis krevetinin akvariumun şüşəsini qıran, xərçənglərin qabığını parçalayan çox möhkəm, "kötəyə" bənzəyən qısqaclarını tədqiq edən Miserez kiçik canlının bu gücünə çox təəccüblənib.

Miserez ABŞ-ın Harvard Universitetindən dr. Ceyms Viver və Perdyu Universiteti ilə Brukheyvn Milli Laboratoiyalarında çalışan elm adamları ilə birlikdə bu tədqiqatı həyata keçirib. Elm adamları mantis krevetinin qısqaclarını nano səviyyədə təhlil edib və krevetin qısqaclarının mühəndisliklə istehsal edilən keramikadan da möhkəm quruluşda olduğunu görüblər.

Elm dünyasında ilk dəfə mantis krevetlərinin qısqacları bu qədər dərindən tədqiq edilib. Keçmişdəki tədqiqatlar mantis krevetinin bədəni ilə müqayisədə çox güclü zərbə vuran canlı olduğunu göstərmişdi. Güclü olduğu qədər zəhərli qısqacları ilə düşmənlərindən qorunan krevet qabıqlı rəqiblərini də vura-vura parçalaya bilir.

### "Bir çox sahədə istifadə oluna bilər"

Miserez "Science" jurnalında dərc olunan məqaləsi haqqında: "Mantis krevetinin zərbələrə qarşı dayanıqlı olması möhkəm bud və oynaq protezlərinin istehsalında da irəliləyişə səbəb ola bilər. Bu protezlər yerimə və gündəlik hərəkətlər zamanı yüzlərlə zərbəyə məruz qalır", - deyib.

Miserez protezlərin sümüklərdə aşınmalara səbəb olduğuna, metal protezlərin insan orqanizmində zəhərlənmələrə yol açdığına diqqət çəkib və araşdırmalarda insanların bioloji quruluşuna uyğun sümük material hasil etməyə çalışdıqlarını bildirib. Mantis krevetlərinin qısqacları kimi möhkəm protezlər hazırlansa, tibb sahəsində mühüm irəliləyiş əldə ediləcək.

### Zireh də hazırlana bilər

Miserez və tədqiqat qrupunun əldə etməyə çalışdığı material mövcud protez materiallarından daha yüngül və zərbəyə qarşı davamlı olacaq. Həmin material hazırlansa, bədən üçün zireh, habelə, daha yüngüz zirehli nəqliyyat vasitələri və möhkəm motorlar istehsal edilə bilər.

# İslam Dünyasında

## Allahşükür Paşazadə: "İslamın əlindən raketi alıb, əvəzinə elm verməliyik"

"Biz bu gün İslamın əlindən çomağı, raketi almalıyıq. Əvəzinə qələm, elm verməliyik". Bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə "İslam Əməkdaşlıq Təşkilatını (İƏT) modeli – 2012 beynəlxalq Təhsil proqramı" layihəsinin bağlanış mərasimində çıxışında deyib.

A.Paşazadə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə yeni sədr təyin olunmasına da münasibət bildirib. O deyib ki, yeni sədr həm də İslamla bağlı olan bir şəxsdir: "Bu, məni sevindirir. Bir vaxtlar Şeyx olanda mənim də yaşım az idi. Məndən yaşımı soruşanda gizlədirdim. 30 yaşım olsa da, 35-40 deyirdim. Mən Elşad müəllimin fəaliyyətinə böyük ümidlə baxıram".



## Elnur Aslanov: "Azərbaycan İslam dünyasının bir parçası, onun ayrılmaz hissəsidir"

Bu sözləri "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli – 2012" beynəlxalq təhsil proqramı layihəsinin bağlanış mərasimində çıxışı zamanı Prezident Administrasiyasının Siyasi Təhlil və İnformasiya Təminatı Şöbəsinin müdiri Elnur Aslanov deyib. Şöbə müdiri bu baxımdan İslam ölkələrinin forumunun Azərbaycanda keçirilməsi və müxtəlif müzakirələrin aparılmasının təsadüfi olmadığını söyləyib:

"Bu, qanunauyğunluqdur. İslam dini Azərbaycan əhalisinin böyük hissəsinin həyat tərzi, milli-mənəvi dəyərləridir. Təbii ki, Azərbaycanda din dövlətdən ayrıdır. Amma heç bir zaman inkar olunmaz ki, milli-mənəvi dəyərlərə sadiqlik istənilən bir cəmiyyətin inkişafedici bir amilidir".

E.Aslanov Azərbaycanda tarixən İslama xüsusi bir önəm verildiyini qeyd edib. "Bu gün də ölkə rəhbərliyi İslama verdiyi önəmlə bu ənənəni davam etdirir.



## Bakıda Türkiyə və Azərbaycan dostluğunun rəmzi olan məscid tikiləcək

Bakıda Türkiyə-Azərbaycan dostluğunun rəmzi olan məscid tikiləcək. Bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İskəndərov deyib.

Onun sözlərinə görə, Türkiyə və Azərbaycan dövlətləri, iki qardaş xalq arasında dostluğun, birliyin rəmzi olacaq "qardaşlıq məscidi" ideyası Azərbaycan prezidenti İlham Əliyevə məxsusdur: "Bu ideya Türkiyə tərəfi ilə də müzakirə edilib, çox böyük minnətdarlıq hissi ilə qəbul olunub. Ölkə prezidentinin tapşırığı ilə məscidin tikilməsi üçün yer ayrılıb. Məscid Azərbaycanın hesabına tikiləcək, Azərbaycan prezidentinin Türkiyə xalqına hədiyyəsi olacaq. Hazırda məscidin texniki detallarının işlənməsi prosesi gedir. Onlar bitib və hər iki tərəf arasında razılaşdırıldıqdan sonra qısa zaman ərzində məscidin tikilməsinə başlanacaq"

E. İskəndərov deyib ki, Azərbaycanın dini siyasəti dünyəvi dövlətçiliyi möhkəmləndirmək istiqamətində qurulub: "Azərbaycan müstəqillik qazanandan xarici dövlətlər bu siyasəti pozmaq sahəsində bir iş görə bilməyib və bilməyəcəklər. Ona görə, bu siyasətdən əl çəkmək ən yaxşı yoldur".

## Əli Həsənov: "Biz fəxr edirik ki, müsəlmanıq və dünyəvi dövlətik"

06.06.2012

Prezident Administrasiyasında ictimai-siyasi şöbənin müdiri Əli Həsənov "The New-York Times" qəzetinə müsahibə verib. Müsahibə zamanı bir çox siyasi mövzuya toxunduqdan sonra İran-Azərbaycan münasibətlərinə toxunan Əli Həsənov «The New York Times»a deyib ki, o, iki ölkənin problemləri yoluna qoyacağına inanır. Əli Həsənov dini mövzulara da toxunub: «Biz elə bir formula tapacağıq ki, dünyəvi dövlət dini dövlətlə sülh şəraitində yaşayacaq. Biz fəxr edirik ki, müsəlmanıq və dünyəvi dövlətik».





# Danışmaq möcüzəsi:
# İnsanın Danışma Qabiliyyəti Riyazi Sirdir

**İki-üç yaşlı uşaq necə qrammatika dərsi keçmədən yetkin insan kimi cümlələr quraraq danışır?**

**Ətrafında danışılanları dinləyərəkmi öyrənir?**

**İnsanlar dilçi alimlərin belə tam anlamadıqları qrammatik qaydaları necə öyrənmişlər?**

**Sözlər və cümlələr necə və harada məna qazanır?**

**Necə olur ki, zehnimizdəki düşüncələrimiz sözlərə və cümlələrə çevrilir?**

Hər bir insan müəyyən yaşa çatdıqda danışmağa başlayır. Demək olar ki, hamı eyni yaşda danışdığından bu vəziyyət təbii görünür. Bu səbəbdən, danışmaq bəzi insanlar tərəfindən adi qabiliyyət kimi qəbul edilir və onun üzərində çox düşünülmür. Halbuki, hələ heç nə bilməyən bir uşağın birdən-birə danışması böyük möcüzədir. Çünki ən sadə dillər belə, özündə kompleks qrammatik qaydaları ehtiva edir. Qrammatik qaydalar isə sözlərə cümlənin tərkibində müxtəlif məna qazandıran riyazi əlaqələrdir.

**Danışdığımız zaman bədənimizdə hansı əməliyyatlar baş verir?**

Bir söz söyləmək istədiyiniz zaman beyninizdən gələn bir çox əmr səs tellərinizə, dilinizə və çənə əzələlərinizə gedir. Beyinin danışıq mərkəzi danışma əməliyyatınızda rol oynayan bütün əzələlərinizə lazımi əmrlər verir.

Əvvəlcə, ağciyərləriniz isti hava təmin edir. İsti hava danışığın xammalıdır. Hava burnunuzdan girir, burun boşluğu, boğaz, nəfəs borusundan sonra bronxlarınıza, oradan da ağciyərlərinizə keçir. Havadakı oksigen ağciyərlərinizdə qana qarışır. Nəticədə, karbondioksid xaric olunur. Ciyərlərinizdən geri qayıdan hava boğazınızdan keçərkən səs tellərinin arasından keçir. Bu tellər pərdəyə bənzəyir və bağlı olduqları kiçik qığırdaqların təsiri ilə hərəkət edirlər. Siz danışmazdan əvvəl səs telləriniz açıq vəziyyətdə olur. Danışdığınız zaman tellər bir-birinə yaxınlaşır və nəfəs verdiyiniz zaman çıxan hava ilə titrəşir.

Ağız və burun quruluşunuz səsinizə özünəməxsus xüsusiyyət qazandırır. Siz sözləri ard-arda düzərək danışarkən diliniz

damağınıza müəyyən qədər yaxınlaşıb uzaqlaşır, dodaqlarınız da yığılıb açılır. Bu əməliyyatlarda bir çox əzələniz böyük sürətlə hərəkət edir.

Danışmağınız üçün bu əməliyyatların hər biri qüsursuz olmalıdır. Bu kompleks əməliyyatlar heyrətamiz sürətlə və qüsursuz şəkildə reallaşarkən sizin bunlardan xəbəriniz belə olmur.

## Danışdığımız zaman bir-birimizi necə anlayırıq?

Dünyada 6000-dən çox dil var. Müxtəlif insan cəmiyyətləri 6000 dil vasitəsilə bir-birləri ilə ünsiyyət qururlar. Bu dilləri meydana gətirən minlərlə söz və bu sözləri cümlələr halına gətirən qrammatik qaydalar bir-birindən tamamilə fərqlənir.

İki psixoloqun - Uilyam Naqi və Riçard Andersonun ingilis dilində danışan ölkələrdə apardıqları araşdırmaya görə, 1-ci sinfə gedən uşaq 13 min, 11-ci sinfi bitirdikdə 60 min söz bilir. Yetkin insan isə təxminən 120 min söz bilir.

Zehnimizdəki bu nəhəng lüğəti meydana gətirmək üçün 1 yaşından 17 yaşına qədər gündə 10 söz, ya da oyanıq olduğumuz zaman hər 90 dəqiqədə yeni bir söz öyrənməli, üstəlik öyrəndiyimiz hər sözü də heç vaxt unutmamalıyıq.

Halbuki, şüurlu olaraq belə bir səy göstərmirik. Sözlər biz fərqində belə olmadan zehnimizdə öz yerlərini mənaları ilə birlikdə tuturlar. Stiven Pinker bu möcüzəni belə vurğulamışdır:

***"Dil istifadəsindəki möcüzələr öyrənmə sürəti ilə məhdudlaşmır. Başqa insanın söylədiyi bir sözü saniyənin yalnız beşdə biri qədər müddətdə anlayırıq. Bu müddət o qədər qısadır ki, qarşımızda danışan adam hələ sözünü bitirmədən mənasını qavrayırıq. Yazılı sözdə isə bu müddət daha qısadır: Bir saniyənin səkkizdə biri. Beynimizin bir söz çıxarması da demək olar ki, eyni sürətdədir və saniyənin dörddə biri qədər olan zamanda bir obyekti adlandıran sözü tapırıq. Yenə saniyənin dörddə biri müddətində bu sözü söyləmək üçün ağzımız və dilimiz proqramlaşdırılır".*** (Steven Pinker, Language Instinct: How the Mind Creates Language, Harper Perennial, 1994)

## İlk dəfə eşitdiyimiz cümlələri anlamaqda niyə çətinlik çəkmirik?

Dilin xüsusiyyətləri mövzusunda maraqlı məqamlardan biri də müəyyən sayda sözlə qurulan cümlə ehtimallarının çoxluğu və insanın bu ehtimalları anlamaq qabiliyyətidir. Hər dildə məhdud sayda söz var. Ancaq bir cümlənin uzunluğu üçün sərhəd olmadığı kimi, söz və söz qrupları üçün də saysız kombinasiyalar mövcuddur. Məsələn, 20 sözlük bir cümlənin müxtəlif formalardakı qurulma formalarına baxsaq, ortaya yüz kentilyon (1020) ehtimal çıxar. Bu cümlələri ard-arda söyləmək üçün təxminən kainatın ömründən yüz dəfə çox zaman lazımdır. Bu səbəbdən, istifadə etdiyimiz və ya eşitdiyimiz hər hansı bir cümlə ilk dəfə qarşılaşdığımız bir cümlədir. Halbuki, biz eşitdiyimiz bir cümlə ilə ilk dəfə qarşılaşsaq belə, onu doğru şəkildə anlamaqda çətinlik çəkmirik.

## Danışma qabiliyyəti zehnimizə işləmişdir

Dilçilərin əksəriyyəti dilin kompleks quruluşunun mövcud olduğunu yekdilliklə qəbul edirlər. Noam Çomskinin dediyinə görə, bir uşağın danışması üçün o uşağın beyninə əvvəlcədən yerləşdirilmiş dilə aid xüsusiyyətlər olmalıdır. Çomski danışmanın öyrənilmədiyini, dilin əsasının anadangəlmə zehində var olduğunu irəli sürür. Həqiqətən də, dil o qədər kompleks bir quruluşa malikdir ki, əgər buna bizi hazırlayan daxili sistem olmasa, öyrənilməsi də, öyrədilməsi də qeyri-mümkündür.

Məlumdur ki, dil və onunla bağlı sistemlər ən xırda incəlikləri ilə birlikdə yaradılmış, insanın xidmətinə verilmişdir. Bu məlumatın sahibi nə insanın özü, nə də təsadüflərə əsaslanan təkamülçü fərziyyələrdir. Bu anlayışları, səsləndirilən sözləri, simvollarla düşünməyi və bunlara sahib olan insanı yoxdan yaradan uca Allahdır.

## Allahın öyrətdiyi sözlər

Dilin mənşəyi mövzusundakı bütün elmi tapıntılar əsrlər əvvəl Quranda açıqlanmışdır: ilk insan olan hz. Adəmə dünyadakı bütün canlılardan fərqli olaraq, adlar və anlayışlarla düşünmək, bu ad və anlayışları simvollara çevirərək dillə xəbərləşmək qabiliyyətini Allah vermişdir.

İnsanın digər canlılardan fərqli olaraq adları bilməsinin səbəbi Allahın bu qabiliyyəti ilk insan olan hz. Adəmə bəxş etməsidir. Allah insanı yaratmış və ona dünyadakı heç bir canlıda olmayan anlayışlarla düşünmə və danışma qabiliyyətini bəxş etmişdir. İnsanlara ən doğru yolu göstərən Quranda Rəbbimiz bizə anlayışlara uyğun gələn adlarla danışmağı öyrətdiyini açıq şəkildə bildirmişdir. Unutmaq olmaz ki, insanın bütün bildiyini ona öyrədən Allahdır. "Ələq" surəsinin ilk ayələrində belə buyurulur:

**Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir. O, qələmlə (yazmağı) öyrətdi. İnsana bilmədiklərini öyrətdi. (Ələq surəsi, 1-5)**

İstədiyimiz sözlərin ağzımızdan çıxması üçün səs tellərinin hansı məsafədə, nə qədər titrəməsinin lazım olduğunu, ağzımızdakı, dilimizdəki, boğazımızdakı yüzlərlə əzələdən hansıları, hansı ardıcıllıqla, neçə dəfə, hansı nisbətdə sıxıb boşaldacağımızı, ciyərlərimizə neçə kub santimetr hava alıb, bu havanı hansı sürət və fasilələrlə boşaltmamızı oturub hesablamırıq. Hətta istəsək də, bunu edə bilmərik! Çünki ağzımızdan çıxan bir sözün meydana gəlməsi insanın tənəffüs sistemindən sinir sisteminə, əzələlərindən sümüklərinə qədər uzanan bir çox quruluşun əlaqəli işinin nəticəsidir.

## Elektronik texnologiyalar insanın dil işləmə sürətinə çata bilmir

Hal-hazırda inkişaf etmiş texnologiyadan istifadə edərək istehsal edilən kompyuterlərin bir sözü eşitmə və anlama sürətləri bizim sürətimizdən beş dəfə azdır və 15%-ə çatan səhvləri vardır. Bundan əlavə, kompyuterlərə proqramlarında olmayan bir söz (məsələn, xüsusi ad) yazıldıqda bu sözün hərflərini bir-bir kompyuterə kodlaşdırmaq lazımdır.

## Bildiyimiz müxtəlif dillər bir-birinə necə qarışmır?

İki dil bilən insanların danışarkən iki dili bir-birlərinə qarışdırmadıqlarını hamı bilir. Hal-hazırda inkişaf etmiş texnikalarla aparılan işlər Allahın beynimizdə fərqli dilləri qarışdırmamağımıza mane olan filtrə bənzər bir nizam yaratdığını ortaya qoyur.

Son texnologiya məhsulu olan alətlər danışarkən beynimizin müəyyən nahiyələrində yaranan elektrik dəyişikliklərini göstərir. Bu texnikadan istifadə edən bir qrup elm adamı ispanca ilə katalanca (İspaniyanın şimal-şərqində danışılan dil) danışan insanlar üzərində müşahidələr apardılar. Aparılan müşahidələr nəticəsində mütəxəssislər bildirdilər ki, iki dildə danışan insanlar beyinlərindəki lüğətdən sözləri seçərək bir dilin digərinə qarışmasına mane olurlar. Danışanlar bir dildən digərinə keçdikləri zaman o dilə aid olmayan sözləri tanıyan və kənarlaşdıran filtrləri dəyişdirirlər. İnsan beyni bunu necə idarə edir?

Şübhəsiz, danışmağımızı təmin edən ağız, dil, dodaq, səs telləri, sinirlər, beyin və digər orqanlarımızla birlikdə bizi yaradan Allah on minlərlə sözdən ibarət olan dilləri qarışdırmadan, sözləri axıcı şəkildə ağzımızdan çıxarmağımızı da təmin edir. Uca Allah bu həqiqəti Quranda belə bildirirr:

**"İnsanı yaratdı, ona danışmağı öyrətdi". (Rəhman surəsi, 3-4)**







# TÜRK-İSLAM BİRLİYİNİN QURULMASI ÜÇÜN RAMAZAN AYI ƏRZİNDƏ DUA ETMƏYİ UNUTMAYAQ

Bu ay bütün İslam aləminin hər il böyük həyəcanla gözlədiyi mübarək Ramazan ayı ilə şərəflənəcəyik. Bütün müsəlman qardaş-bacılarımıza bərəkət, xeyir, əmin-amanlıq gətirməsini səmimi qəlbdən istədiyimiz bu mübarək ayın xeyirlərə səbəb olmasını diləyirik. İslam dünyasında Ramazan ayı yardımlaşma və həmrəyliyin daha çox ön plana çıxdığı mühüm aydır. Birlik və bərabərliyin daha vacib olduğu bu günlərdə heç kim "mənim köməyimlə, cəhdimlə nə olar?" deyə düşünmədən Türk İslam Birliyinin qurulması üçün səmimi niyyətlə cəhd etməlidir. Əsla unutmamalıdır ki, bu cəhdləri uğurla nəticələndirən və iman gətirənlərin dualarına qarşılıq verən sonsuz qüdrət və şəfqət sahibi Allahdır.

## TÜRK İSLAM BİRLİYİ RAMAZANDA MÜSƏLMANLARIN DİLİNDƏN DÜŞMƏMƏLİDİR

**ADNAN OKTAR:** *"Hər yerdə həll yolu İttihadi-İslamdır. İstər Efiopiyada, istərsə digər yerlərdə olsun, Somalidə, İraqda, Əfqanıstanda, Çadda – hər yerdə əzab-əziyyət var. Cənub-şərqi Anadoluda da müsəlmanlar çətinlik çəkirlər. Türk-İslam Birliyi, yəni İttihadi-İslam Ramazanda müsəlmanların dilindən düşməməlidir. Məscidlərdə din xadimləri müsəlmanlara müntəzəm olaraq bunun üçün dua etdirsinlər, bacı-qardaşlarımız dua etsinlər. Hər kəsə çatdırılsın, hamının dilində olsun, hamıdan tələb edilsin. İsrarlı istəklər nəticələnir, bilirsiniz. Məsələn, bir şey israrla tələb edilərsə, olur. İsrarla bu da tələb edilərsə, bu da olar. Çox uyğundur, ancaq israrlı tələb çox vacibdir." (2 avqust 2011, A9 TV röportajından)*

*"Ramazanın hər günü bayramdır. Müsəlmanlar üçün nemətdir, şəfadır. Allahın rizasını qazanmaq üçün mühüm vasitədir, inşaAllah. Allah davamını gətirsin..."*

**(Cənab Adnan Oktar, 2 avqust 2011, A9 TV)**



# Möminlərin və cahiliyyənin dostluq anlayışı

Hər bir insan özünə yaxın dost axtarır. Xoşbəxt anlarını paylaşacağı, çətin anlarında ona dəstək olan, həll edə bilmədiyi mövzularda yol göstərən, onu sevən, sədaqətli olan, qoruyan, səhvlərinə şəfqətlə yanaşan, xəstələndikdə və ya yaşlandıqda onu tək buraxmayan insanlar axtarır…

Sevgi Allahın insanlara verdiyi ən böyük nemətlərdən biridir. Allah insanın fitrətini sevməkdən və sevilməkdən zövq alacağı, dostluqdan və yaxınlıqdan xoşlanacağı şəkildə yaratmışdır. Quran əxlaqını yaşayan insanlarla bir yerdə olmaq, onlarla dostluğu və sevgini yaşamaq isə iman gətirən insana bir çox nemətdən daha çox zövq verir. Bu səbəbdən, Allahın sevdiyi və razı olduğu qullarına vəd etdiyi cənnət əsl sevginin, dostluğun və yaxınlığın sonsuza qədər böyük coşğu ilə yaşanacağı gözəl yerdir. Allahın Quranda cənnət həyatına dair verdiyi xəbərlərdə həmişə sevinc, yoldaşlıq, sevgi, söhbət, gözəl söz və rahatlıqdan bəhs edilir. Sevgi və dostluğa mane olan hər şey cənnətdəki insanlardan uzaq tutulmuşdur. Məsələn, Allah bir ayədə cənnətə girən möminlərin kökslərindəki kin-küdurəti çıxaracağını bildirmişdir ("Əraf" surəsi, 43). Qısqanclıq, düşmənçilik, rəqabət, hirs, incimə kimi sevgiyə və dostluğa mane olan pis xüsusiyyətlər cənnətdən kənarda qalacaq.

Allah Quranın bir çox ayəsində möminlərin bir-birlərinin vəliləri olduqlarını bildirir. Bu ayələrdən biri belədir:

**"Mömin kişilərlə mömin qadınlar bir-birinin vəliləridir. Onlar yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Vəli sözünün mənası dost, qoruyucu, köməkçi və dəstəkçidir. Bu səbəbdən, bu ayənin tələbi olaraq vicdanlı, gözəl əxlaqlı və səmimi möminlər bir-birlərini dəstəkləməli, qorumalı, bir-birlərinə dost olmalı və kömək etməlidirlər.

## Dostluq necə olmalıdır?

Əxlaqa əhəmiyyət verilən dostluq: əsl dost olmaq üçün insanı yalnız gözəl əxlaqına



görə sevmək lazımdır. Bu xüsusiyyətlər insanın Allah qorxusu və sevgisi, imanı, səmimiyyəti və təqvasıdır. Ancaq bu dəyərlər üzərində qurulan dostluqlar möhkəm ola bilər. Bu cür yüksək əxlaqa sahib olan insanların dostluğu sarsılmaz olur.

Bitməyən dostluq: şübhəsiz, hər insan üçün əsl dostluq çox qiymətli və böyük nemətdir. Əsl dost insanın yaxşı günündə də, pis günündə də yanında olan, özü üçün istədiyi bütün gözəllikləri dostu üçün də tərəddüd etmədən istəyən, onun xoşbəxt olmasını, yaxşı olmasını ən az özü qədər arzu edən insandır. Qısqanclıq, rəqabət kimi düşüncələrə qapılmadan qarşısındakı insanı səmimiyyətlə sevən və həmişə onun yaxşılığını istəyən insandır. Quran əxlaqından qaynaqlanan belə möhkəm dostluğu başqa cür əldə etmək mümkün deyil.

Axirəti hədəfləyən dostluq: əsl dost öz dostunun dünyada da, axirətdə də xoşbəxt olmasını hədəfləyən insandır. Lazım olduqda səmimi və açıq danışıb, ona imani istiqamətdən əskikliklərini izah etmək, onları aradan qaldırmaq üçün yol göstərmək də əhəmiyyətli dostluq xüsusiyyətidir. Bu cür davranışı ancaq həqiqətən sevən və həqiqətən dost olan insan edər.

Hörmət və sevgiyə əsaslanan dostluq: quran əxlaqının yaşandığı bir mühitdə Allah qorxusu və iman insanların bir-birlərinə əsl mənada sevgi və hörmət bəsləmələrini təmin edən dəyərlərdir. İman gətirənlərin bir-birlərinə bəslədikləri sevgi, güvən və sədaqət onların Allah yolunda göstərdikləri səyə görə formalaşır. Allahın razılığını qazanmaq üçün sahib olduğu hər şeyini xeyir yolunda sərf edən, bu yolda düz istiqamət götürən bir mömin müsəlman qardaşlarının sevgisini qazanar və onlara ən gözəl şəkildə nümunə olar. Aralarındakı güclü sədaqət bir-birlərinə olan sevginin, bağlılığın və güvənin artmasına səbəb olar. Bu səbəbdən, dostluq və yaxınlıq insanların Allah qorxuları, imanları və gözəl əxlaqları üzərində qurulmuşdursa, xəstəlik və ya yaşlılıqla yaranan fiziki dəyişikliklər bu dostluğa qətiyyən təsir edə bilməz. Əksinə, bu vəziyyətdəki bir möminə daha da çox şəfqət və mərhəmət duyular.

Dürüstlüyə əsaslanan dostluq: səmimiyyət insanın daxili ilə xaricinin bir olması, ürəyində hiss etdiyini xaricə əks etdirməsidir. Çox səmimi, açıq və dəqiq olması, düşüncələrini, duyğularını gizlətmədən özünü olduğu kimi göstərməsi, əsl xarakterini açıq şəkildə ortaya qoymasıdır. Quran əxlaqına görə, insan səmimiyyəti ölçüsündə dəyər qazanır; yaxınları və sevdikləri onun səmimi olduğunu bildikləri üçün həmin insana güvənir və onu sevirlər. Allah Quranda belə buyurur:

**Sizin dostunuz yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər. (Maidə surəsi, 55)**

## Cahiliyyənin dostluq anlayışı

Qəzetlərdə, jurnallarda, televiziya kanallarında və ya ətrafımızda tez-tez bir-birlərini nə qədər çox sevdiklərini söyləyən insanların tətillərdə, əyləncə yerlərində, iş yoldaşlarının, şəriklərin isə şirkətləri qarşısında çəkilmiş şəkillərini görürük. Bir müddət sonra həmin insanların yoldaşlıqlarının, dostluqlarının, iş münasibətlərinin və ya evliliklərinin bitdiyi ilə

əlaqədar xəbərlər qarşımıza çıxır. Əvvəl bir-birlərini sevdikləri, bir-birlərinə dəyər verdikləri, "Bizim sevgimiz çox fərqlidir", - deyən insanlar sonradan bir-birlərinə cəmiyyətin qarşısında çox ağır sözlər söyləyərək, böhtanlar ataraq, bir-birlərini maddi çətinliklər içində qoyaraq ayrılırlar.

İnsanlar arasındakı əlaqələr necə olursa olsun (istər evlilik, istər iş ortaqlığı, istər yoldaşlıq), onların arasındakı bağların qopması bu və ya buna bənzər şəkildə olur. Bir müddət əvvəl bir-birlərini sevən, dəyər verən kimi görünən insanlar biri digərini alçaldaraq, nifrət edərək ayrılırlar.

Əslində, yaşadıqları sistem içərisində sevgi və dostluq adlandırdıqları şey əsl sevgi və əsl dostluq deyil. Bu, yalnız keçici həvəslərə əsaslanan, möhkəm dayağı olmayan, qarşılıqlı mənfəətlər istiqamətində inkişaf edən və qorunan, heç bir mənəvi dərinliyi olmayan, əsasən, maddi dəyərlərə əsaslanan və tərəflərdən birinin mənfəətinin bitməsi ilə sona çatan əlaqələrdir.

Təkliyə məhkum olan dostluq: Quran əxlaqını özlərinə rəhbər etməyən insanlar nə qədər istəsələr də, əsla yaxın dost tapa bilməzlər. Buna görə, bir çox insanın "Təkəm", "Bir dostum belə yoxdur", "Hamısı çətin günümdə tək qoydular, hamı yaxşı günün dostu imiş" kimi sözlərinə tez-tez rast gəlinir.

Mövqe və etibara əsaslanan dostluq: bəzi insanların var-dövlət, gözəllik, etibar, mövqe, ya da ictimai status kimi dəyərlərə görə qurduqları dostluqlar heç vaxt daimi olmaz. Çünki dostluğun əsaslandığı bu dəyərlərdə bir dəyişiklik olduğu zaman dostluq da bitir. Məsələn, bu əxlaqa sahib olan bir insan çox gözəl və dəbdəbəli həyat sürən biri ilə yoldaş ola bilər. Əgər həmin insan qəza nəticəsində tanınmayacaq qədər qüsurlu və eyni zamanda da baxıma möhtac, aciz bir vəziyyətə düşərsə, bu insana olan bütün maraq və yaxınlıq da bitər.

Rəqabətə əsaslanan dostluq: rəqabət gözü ilə baxan, həsəd aparan insanlar çox vaxt məcbur qalanda başqalarına səhvlərini söyləyirlər. Çünki başqalarının özlərindən yaxşı olmasını istəmir və ya dostluqlarının pozulacağını düşünərək səhv hərəkət görsələr belə, "Çox yaxşısan", "Biz səni belə, olduğun kimi sevirik" kimi sözlər söyləyərək çox vaxt səmimiyyətsiz davranırlar. Səhvlərini o zaman insanların üzlərinə vururlar ki, həmin an onları incitməyi və utandırmağı düşünürlər.

Mənfəətə əsaslanan dostluq: mənfəətlərinə görə yaşayan insanlar özləri də maddi-mənəvi eniş və yoxuşlarla qarşılaşırlar. Gözəlliklərini, gəncliklərini, sağlamlıqlarını, sa-



hib olduqları malları, zənginliklərini itirirlər. Əvvəl əsl dost zənn etdikləri insanların yaşlananda, zəifləyəndə onlara dəyər vermədiklərini görürlər. Yaxşı günlərində çox yaxın davranan, bir-birlərinə sədaqət andı içən insanlar bir-birləri ilə danışmayan və hətta bir-birlərini tanımayan insanlara çevrilirlər. Bir problemləri olanda məsləhətləşəcəkləri, kömək istəyəcəkləri, güvənə biləcəkləri insanların olmadığını görürlər. "Ən yaxınım", - dedikləri insanların belə, mənfəətlərini dostluqdan üstün tutduqlarını anlayırlar.

Etibarsızlığın hakim olduğu dostluq: Quran əxlaqına görə yaşamayan insanların bir-birlərinin pis əxlaq xüsusiyyətlərini bilərək əsl sevgi bəsləmələri, hörmət bəsləmələri, güvənmələri qeyri-mümkündür. Bir insanın yalan danışdığını, ikiüzlü və süni olduğunu bilib, mənfəətləri üçün başqalarından istifadə etdiyini görüb ona qəlbən sevgi bəsləmək və hörmət etmək mümkün deyil. İnsan nə qədər: "Dostum, yaxınım", - desə də, bu insanın başqalarına olduğu kimi, özünə qarşı da eyni cür yanaşdığını bilir.

## Əsl dostluq Allah rizası üçün olandır

Qurana görə yaşamayan insanlar əsl sevgi və dostluğun da necə olduğunu bilməzlər. Çünki əsl sevgi və dostluğun əsası Allah sevgisi və razılığı üzərində qurulur, iman, təqva, Allaha olan yaxınlıqla artır.

İman gətirən bir insan Allahı böyük coşğu, həyəcanla sevər. Allaha olan sevgisindən ötrü Allahın yaratdıqlarına qarşı da böyük sevgi və məhəbbət duyar. Allahı çox sevdiyi üçün Allahı sevən imanlı insanlara qarşı böyük sevgi duyar. Təqvaya əsaslanan sevgidə cahiliyyə əxlaqında tez-tez eşitdiyimiz "... sevgim bitdi, sevgim azaldı, dostluğumuz bitdi... və s." kimi ifadələrə yer yoxdur. Mömin qarşısındakı insan imanlı və təqvalı olduğu müddətcə onu daim, hər şəraitdə və hər vəziyyətdə çox sevər. Yaşlılıq, şikəstlik, fiziki qüsur, mövqeyi itirmək, müflisləşmək, xəstəlik, səhv etmək kimi vəziyyətlər əsla sevgiyə mənfi istiqamətdə təsir etməz. Bu sevgidə vəfa, sədaqət, mərhəmət, bağışlama var. Əskiklik, qüsur olsa belə, yenə də gözəl gözlə baxma var. Allah üçün olan sevgidə, sevginin müddəti, ya da sonu yoxdur. Bu sevgi dünyada və sonsuz axirət həyatında yaşanmaq üçün hədəflənmişdir. Allah əsl sevgi və dostluğun yaşanmasının ancaq imanla mümkün olduğunu Quranda belə bildirir:

**İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

Birlik, həmrəylik, dostluq, fədakarlıq, yardımlaşma, qoruma və buna bənzər xüsusiyyətlər Quran əxlaqının əsasını meydana gətirən gözəlliklərdir. İslam əxlaqını yaşayan insanlar bir-birlərinə qarşı anlayış göstərdikləri, xoş münasibət, sevgi və sülh dolu, dinc mühitdə yaşayarlar. Bu xüsusiyyətlərə sahib olan cəmiyyətlər isə hər zaman daha sürətli inkişaf edər və güc qazana bilərlər. Çünki birlik təmin edildikdə, cəmiyyətin fərdləri güc və enerjilərini mübahisələrə, müharibələrə, qarşıdurmalara, döyüşlərə deyil, həmişə faydalı və gözəl işlərə istiqamətləndirərlər. Ayrıca, hər kəsin əməyini, gücünü, şövqünü qatdığı, bir-birinə maddi və mənəvi istiqamətdən dəstəklədiyi işlərdə, Allahın iznilə, böyük bərəkət və gözəllik meydana gələr.



*Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz... (Nəhl surəsi, 18)*

## Göz cismə necə fokuslanır?

Cisimləri aydın görməyimiz göz büllurunun hər saniyə dayanmadan "avtomatik fokuslama" etməsi ilə mümkün olur. Bu tənzimləmə göz büllurunun ətrafındakı kiçik əzələlər tərəfindən həyata keçirilir. Baxışımızı hər dəfə dəyişdikdə bu əzələlər işə düşür və büllurun qabarıqlığını dəyişdirərək işığın düzgün bucaq altında sınmasını və istədiyimiz cismi aydın görməyimizi təmin edir. Göz bülluru bu tənzimləməni həyatımız boyu heç xətaya yol vermədən hər saniyə edir. Fotoqraflar eyni tənzimləməni fotokameralarda əllə edir və doğru fokuslamanı əldə etmək üçün bəzən uzun müddət çalışırlar. Müasir texnologiya nəticəsində son 10-15 il ərzində avtomatik fokuslama edən kameralar istehsal olunmuşdur, ancaq heç bir kamera göz qədər sürətlə və qüsursuz fokuslama edə bilmir.



## Meteorit bombardmanından necə qorunuruq?

Meteoritlər saniyədə təxminən 40 km, yəni saatda 145.000 km sürətlə Yerə istiqamət götürürlər. Ancaq atmosferə daxil olduqdan sonra sürtünmənin təsirindən yanmağa başlayır və bizə zərər vermədən məhv olurlar.

Statistikaya görə, ildə təqribən 50 min meteorit atmosfer tərəfindən zərərsizləşdirilir. Biz fərqinə varmasaq da, bu "kosmik bombalar"dan təbii qalxan funksiyası yerinə yetirən atmosfer sayəsində qorunuruq.



## Səs qulaqda necə artır?

Elmi tədqiqatlar qulaq seyvanının səsləri toplayıb istiqamətləndirdiyini, qulaq seyvanının içindəki qırışların isə səsi istiqamətləndirmək üçün lazımi akustik quruluşda olduğunu göstərmişdir. Qulaq seyvanının "konka" adlanan xarici qulaq keçəcəyi bir növ meqafon funksiyası yerinə yetirir və səs dalğalarını xarici qulaq yolunda sıxlaşdırır. Bu yolla səs dalğalarının gücü təqribən 17 desibel artır.

## Mədə turşusu nə üçün mədəyə zərər vermir?

Qida borusu qidaların mədəyə çatdırılması funksiyasını daşıyır. Mədəyə çatdıqda isə mükəmməl sistemlə qarşılaşırıq. Qidaların mədədəki həzmi bu orqanın içindəki hidroxlorid turşusu tərəfindən həyata keçirilir. Ancaq bu turşu o qədər güclüdür ki, təkcə qidaları deyil, mədə divarlarını belə əridə bilər. Lakin, əlbəttə, Rəbbimizin yaratdığı qüsursuz sistem sayəsində bu baş vermir. Həzm zamanı ifraz edilən selik mədənin bütün divarlarını örtür və hidroxlorid turşusunun parçalayıcı təsirinə qarşı mükəmməl qoruyur. Beləcə, mədənin öz-özünü məhv etməsinin qarşısı alınır.



## Bu yazını oxuyarkən nələr baş verir?

Sinirlər vasitəsilə beyinə çatdırılan mesajlar saatda 200 mil (320 km) sürətlə yol qət edirlər. Yəni beyin hüceyrələrindən bədənə gedən sinirlərimiz beyinlə bədən arasında gedən məlumatlar üçün sanki magistral yol funksiyası yerinə yetirir. Bədənimizdə hər an meydana gələn bütün proseslər, məsələn,

- o Hal-hazırda sizin bu jurnalı gözlərinizlə oxumağınız,
- o Səhifələri əlinizlə çevirməyiniz,
- o Oxuduqlarınızı anlamağınız,
- o Ürəyinizin döyünməsi,
- o Nəfəs almağınız,
- o Gözlərinizi qırpmağınız,
- o Saçlarınızın uzanması,
- o Qoxuları bilməyiniz,
- o Qulağınızla ətrafdakı səsləri eşitməyiniz,

Qısaca desək, jurnalı oxuduğunuz müddətdə saymaqla bitməyən hər cür hərəkətiniz hər an beyinə gedən impulslar və beyinin orqanizmin hər yerinə ayrı-ayrı göndərdiyi əmrlər vasitəsilə davam edir.

Bütün bunlar sonsuz elm sahibi uca Rəbbimizin bizə verdiyi nemətlərdən sadəcə bir neçəsidir.

# MÜSƏLMANLARIN MÜBARİZƏSİ QURAN ƏXLAQINA UYĞUN OLMALIDIR

Bir müsəlman bütün həyatını Allahın Quranda əmr etdiyi əxlaq üzərində qurmalıdır. Gündəlik həyatında, ticarət zamanı, bir iş görərkən və ya insanlarla münasibətlərində necə haqq-ədalətlə hərəkət edirsə, müharibədə və müdafiə zamanı, torpaqlarından sürgün edildikdə də eyni əxlaqa uyğun davranmalıdır. Yenə təvəkküllü, ədalətli olmalı, Allahın əmr və tövsiyələrini ciddi şəkildə yerinə yetirməlidir. Məlum olduğu kimi, İslam sözü ərəb dilində "sülh" mənasını verir. Quran ayələrində insanlar yer üzündə sevginin, şəfqətin və sülhün modeli kimi İslam əxlaqına dəvət edilirlər. Allah insanlar arasında heç bir ayrı-seçkilik etmədən ədalətlə hökm etməyi, insanların hüquqlarını qorumağı, zülmə əsla göz yummamağı, zalıma qarşı məzlumun tərəfində olmağı, ehtiyac içində olanlara yardım əli uzatmağı əmr edir. Bu ədalət hər hansı qərar verdikdə hər iki tərəfin də haqqını qorumağı, hadisələri hərtərəfli dəyərləndirməyi, ön mühakiməsiz düşünməyi, bitərəfliyi, haqqı, dürüstlüyü, sevgini, mərhəməti və şəfqəti tələb edir.

Quranda **"Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!** (Maidə surəsi, 8)" ayəsində də bildirildiyi kimi, kin, nifrət və qəzəb kimi hisslər iman gətirən insanın verdiyi qərarlara, əxlaqına və hərəkətlərinə təsir etməməlidir. Müsəlman həmişə Quran ayələrinə uyğun hərəkət etməli, səbirli, təvəkküllü və etidallı davranmalı, qəfil reaksiya verməkdən hər vəchlə çəkinməlidir.

Allahın **"Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edənlərə müjdə ver!** (Bəqərə surəsi, 155)" ayəsində də bildirildiyi kimi, dünya həyatında sınaqdan keçirildiyini əsla unutmamalıdır. Allah Quran ayələrində heç bir təqsiri olmayan, müdafiəsiz qadınların, yaşlıların və uşaqların öldürülməsini qadağan etmişdir.

Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) həyatına baxdıqda müharibənin ancaq labüd hallarda və müdafiə məqsədilə əl atılan metod olduğunu görürük.

Quranın Peyğəmbərimizə (s.ə.v) vəhyi 23 il davam edib. Bunun ilk 13 ilində

müsəlmanlar Məkkədəki bütpərəstlərin içində azlıq təşkil edirdilər və böyük təzyiqlərə məruz qalırdılar. Bir çox müsəlmana fiziki işgəncə verilmiş, bəziləri şəhid edilmiş, çoxunun evi və mal-dövləti əlindən alınmış, daimi təhqir və hədə-qorxularla qarşılaşmışlar. Buna baxmayaraq, müsəlmanlar zorakılığa əl atmadan yaşamağa davam etmiş və bütpərəstləri daima sülhə çağırmışdılar.

Nəhayət, bütpərəstlərin təzyiqləri dözülməz həddə çatdıqda müsəlmanlar daha azad mühitin olduğu Yəsrib (sonrakı adı ilə Mədinə) şəhərinə hicrət edərək burada öz sistemlərini qururlar. Öz siyasi quruluşlarını bu şəkildə qurduqdan sonra da Məkkənin təcavüzkar bütpərəstlərinə qarşı müharibə aparmayıblar.

Habelə, Peyğəmbərimiz (s.ə.v) bütpərəstlərin bir çox tələbini qəbul edən sülh müqaviləsi (Hüdeybiyyə sülhü) bağlayaraq sülh və əmin-amanlıq mühitini təmin etmiş və bütpərəstlərlə sülh şəraitində yaşamaq üçün sosial quruluş təsis etmişdir. Müqaviləni pozan tərəf isə yenə bütpərəstlər olmuş və bu təqdirdə, yeni müharibə şəraiti əmələ gəlmişdir. Ancaq müsəlmanların sayının sürətlə artması ilə İslam ordusu bütpərəst ərəblərin müqavimət göstərə bilməyəcəyi gücü əldə etmiş və Peyğəmbərimiz (s.ə.v) bu güclü ordu ilə Məkkəni fəth etmişdir. Bu fəthdə heç qan tökülməmiş, heç kimin burnu belə qanamamışdır.

Peyğəmbərimiz (s.ə.v) keçmişdə ona və müsəlmanlara ağır təzyiq göstərən və işgəncələr verən müşriklərin heç birinə toxunmamış və onları bağışlayaraq inanclarında sərbəstlik vermişdir. Bu yüksək xarakterə heyran olan müşriklər daha sonra öz istəkləri ilə İslamı qəbul etmişdilər. Təkcə Məkkənin fəthində deyil, Peyğəmbərimizin (s.ə.v) dövründə aparılan bütün döyüş və fəthlərdə məsum və müdafiəsiz insanların hüquqları ciddi şəkildə qorunmuşdur. Mübarək Peyğəmbərimiz (s.ə.v) möminlərə bu məsələdə dəfələrlə xəbərdarlıq etmiş, öz davranışları ilə onlara nümunə olmuşdur. Belə ki, bir hədisində döyüşə gedən möminlərə "Rəsulullahın dini üçün səfərə çıxın. Ancaq yaşlı, qadın və uşaqlara toxunmayın. İslah və ehsan əhlindən olun. Allah müxlisləri sevər" şəklində müraciət etmişdir. Peyğəmbərimiz (s.ə.v) müsəlmanların isti müharibədə ikən də necə davranmalı olduqlarını başqa bir hədisində bu sözləri ilə ifadə etmişdir:

**"Uşaqları öldürməyin. Kilsələrdə ibadət edən insanlara toxunmaqdan çəkinin! Qadınları, yaşlanmış piri-faniləri öldürməyin. Ağacları yandırmayın və kəsməyin. Evləri də dağıtmayın!"**



# Vicdanınızı nə qədər dinləyirsiniz?

Allah hər insanı imtahan etmək üçün nəfslə yaratmışdır. Quranda nəfsin iki istiqamətli olduğu bildirilir: birinci istiqaməti insanı Allahın yolundan döndərən eqoist həvəslər mənasını verən həva, ikinci istiqaməti isə vicdandır.

**And olsun nəfsə və onu yaradana; Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini öyrədənə ki, nəfsini təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır. (Şəms surəsi, 7-10)**

Vicdan hər insana gözəl rəftarı və düşüncəni söyləyən, insanın sağlam mühakimə yürütməsini, doğrunu yanlışdan ayırd etməsini təmin edən mənəvi xüsusiyyətdir.

Vicdan bütün insanlarda eynidir. Bir insanın vicdanına görə doğru olan şey eyni şərtlər daxilində digər insanların vicdanları üçün də etibarlıdır. Vicdanlar heç vaxt zidd olmaz. Bunun səbəbi isə vicdanın qaynağıdır: vicdan Allahın ilhamıdır. Allah hər insana vicdanı vasitəsilə Özünün razı olacağı ən doğru və ən gözəl davranışları bildirir.

Vicdanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri də insana doğrunu tapmağa yardım etməsidir. Heç kim deməsə belə, vicdan insana həmişə doğrunu göstərir. Ancaq insanın vicdanına müraciət etməsi, onun nə dediyini dinləməsi və söylədiklərini tətbiq etməsi çox vacibdir.

Hər şeydən əvvəl, unutmaq olmaz ki, hər insan şüura sahib olduğu andan etibarən Allahın ona ilham etdiyi vicdanın söylədiklərindən məsuldur. Ətrafındakı hadisələri dərk etməyə başlayan, mühakimə qabiliyyəti qazanan insan vicdanını eşidirsə, deməli, nəfsi ilə vicdanını ayırd edə bilən qabiliyyətə və vicdanına tabe olan iradəyə sahibdir. Artıq bundan sonra qarşılaşdığı hadisələr əsnasında seçdiyi yoldan hesab günü sorğulanacaq: vicdanına tabe olmuşsa, Allahın sonsuz Cənnətinə layiq görüləcək, nəfsinə uymuşsa "qapıları kilidlənmiş" sonsuz odla qarşılaşacaq.

Buna baxmayaraq, insanların əksəriyyəti dünyada olarkən vicdanları ilə dərk etdiyi, bəlkə də özlərinə dəfələrlə deyildiyi və heç bir çətinliyi olmadığı halda, nəfslərinə uyaraq bilə-bilə Allahın yolundan üz çevirirlər. Əlbəttə, vicdani olaraq doğru olanı etmədiklərini dərk edən bu insanlar özlərinə doğrunu pıçıldayan vicdanlarını susdurmaq, onu rahatlaşdırmaq, günahkarlıq duyğusunu ört-basdır etmək üçün müxtəlif bəhanələr irəli sürürlər.

## Vicdanı rahatlaşdırmaq üçün uydurulan bəhanələr

Əksəriyyətə uyma məntiqi insanların vicdanlarını rahatlaşdırmaq məqsədilə qarşıya qoyulan

bəhanələrin başında gəlir. Bu anlayışa görə, müəyyən günlərdə ibadət etmək kifayətdir (Allahı tənzih edirik). Bu insanlar özlərinə doğru olan deyildikdə: "İnsanların əksəriyyəti belə edir", - deyərək vicdanlarını rahatlaşdırmağa çalışırlar. Ancaq Allah Quranda əksəriyyətə itaət etməyin səhv olduğunu belə bildirir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)**

Əksəriyyətə uyma məntiqi insan üçün çox ciddi təhlükədir və dünya həyatındakı ən böyük aldanışlardan biridir. Çünki insan öldüyü zaman "Onun dediyi şeylər Bizə qalacaq və o, hüzurumuza tək-tənha gələcəkdir (Məryəm surəsi, 80)" ayəsində də bildirildiyi kimi, Allahın hüzuruna həyatı boyu itaət etdiyi əksəriyyətlə birlikdə deyil, tək-tənha gələcək və hesab verəcək.

## Ürəyinin təmiz olduğunu irəli sürmək

İnsanların vicdanlarını rahatlaşdırmaq üçün istifadə etdikləri ən əhəmiyyətli bəhanələrdən biri də özlərini din əxlaqı mövzusunda kafi görmələridir. Halbuki, nə qədər özlərini kafi görsələr də, əslində, vicdani olaraq bu mövzuda nə qədər əskik olduqlarını, mənfəətlərinə uyğun gəlmədiyi üçün hansı hökmləri tətbiq etmədiklərini çox yaxşı bilirlər. Quranda bildirilən hökmləri yerinə yetirməyən və ya bunları yerinə yetirməyi çətin görən insan: "Mən bunları etmirəm, amma ürəyim təmizdir, Allah bilir, məni bağışlayar", - deyə düşünərək vicdanını rahatlaşdırmağa çalışır. Bu mövzuda bir sual verdikdə bir çox insan dərhal özünün təmiz ürəkli olduğunu, heç kimə zərər vermədiyini, dini hisslərinin çox güclü olduğunu söyləyəcək. Halbuki, bunlar özünü aldatmaqdan başqa bir şey deyil. Əhəmiyyətli olan Allaha səmimi qəlblə qulluq etmək və Quran əxlaqına uyğun yaşamaqdır. İnsan bunu etmədikcə gördüyü bütün işlər mənasız, boş və zərərlidir. Ayələrdə bu insanların dünyəvi səylərinin dəyərsiz olduğu belə bildirilmişdir:

**"(O gün) bir çox üzlər zəlil görkəm alacaq; zəhmət çəkib yorulacaq" (Ğaşiyə surəsi, 2-3)**

## Təxirə salma məntiqi

Uşaqlıq dövrünün sona çatması ilə şüurlu və sağlam hər kəs Quranda bildirilən hökmlərdən məsuldur. Bu məsuliyyəti



yaşlılıq dövrünə qədər təxirə salmağa çalışmaq və ya yerinə yetirməkdən qaçmaq keçici dünya həyatının bəzəyini seçmək mənasını verir. Ancaq insan unutmamalıdır ki, bu dünya əsl məkan deyil və heç kim buradakı həyatının nə vaxt sona çatacağını bilmir. Bu səbəbdən, məsuliyyətləri təxirə salmaq ağıllı insanın etməyəcəyi davranışdır. Çünki insan nəinki yaşlanacağından, hətta sabah, bir saat sonra belə yaşayacağından əmin ola bilməz və yaşı neçə olursa olsun, uca Allahın qoyduğu hökmləri təxirə salsa, cəzası axirətdə sonsuz Cəhənnəm əzabı ola bilər.

## Yanlış axirət inancı

Yer üzündə yaşayan insanların əksəriyyətinin axirət mövzusundakı məlumatları böyüklərindən və ya Quranda xəbər verildiyi kimi, atalarından öyrəndikləri əskik məlumatlara əsaslanır. Halbuki, din əxlaqı ilə əlaqədar müraciət ediləcək yeganə qaynaq Qurani-kərimdir və ayələr hər yaşa və mədəniyyətə mənsub olan insanın anlaya biləcəyi qədər açıqdır.

Öyrənilən yanlış məlumatlar istiqamətində bəzi insanlar Allahın bildirdiyi heç bir hökmü yerinə yetirməmək üçün: "Oğurluq etmədiklərini, heç kimi öldürmədiklərini", - deyərək, "yaxşı insan" olduqlarını və "əgər axirət varsa" cənnətlik olduqlarını iddia edirlər (Allahı tənzih edirik). Beləliklə, digər insanların hüzurunda özlərini təmizə çıxararaq vicdanlarını rahatlaşdırırlar. Belə insanlar haqqında bir ayədə belə buyurulmuşdur:

**Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr (elə deyil). Allah istədiyini təmizə çıxardar və onlara xurma çərdəyindəki nazik tel qədər zülm olunmaz! (Nisa surəsi, 49)**

Axirətə qəti məlumatla inanmadıqları və bu mövzudakı məlumatları kifayət qədər olmadığı üçün bu şəxslərin Cəhənnəm haqqındakı düşüncələri də çox səthidir. Allahın qüdrətini tam olaraq təqdir edə bilmədiklərindən məhdud ağılları ilə Cəhənnəmi sanki işgəncələrlə dolu bir həbsxana kimi görürlər (Allahı tənzih edirik). Halbuki, Cəhənnəm insan ağlının qavraya bilməyəcəyi dərəcədə qorxunc, mərhəmətin olmadığı, ən şiddətli əzabın yaşandığı bir məkandır. Belə bir mühitə insanın nəinki girməsi, baxmağa belə dözə bilmədiyi Quran ayələrindən aydın olur.

Eşitdiyi məlumatlarla Cəhənnəm əzabının qorxunc olduğunu az da olsa anlayan insanlar Cəhənnəmdən xilas olmaq üçün Allaha ibadət etmək yerinə, ağılsız məntiq yürüdərək vicdanlarını rahatlaşdırırlar. Onlara görə, günahkar olan insanlar bir müddət Cəhənnəmdə qalacaq, cəzalarını çəkəcək, sonra Cənnətə girəcəklər. Halbuki, bu mövzudakı Quran ayələri açıqdır. Cəhənnəmdə qalma müddəti sonsuzdur. Bu vəziyyət Quranda **"Onlar orada sonsuz müddət qalacaqlar.** (Nəbə surəsi, 23)" ayəsi ilə açıq şəkildə bildirilmişdir.

## "Dünyanı mən xilas edəcəyəm?" məntiqi

Quran əxlaqından uzaq yaşayan insanlar yalnız öz mənfəətlərini düşündüklərindən ətraflarında olan hadisələrə qarşı çox laqeyddirlər. Dünyanın bir çox yerində baş verən müharibələri, işğalları, aclıqdan və yoxsulluqdan ölən insanları heç düşünmürlər. Bu insanların yaşadıqlarını televiziyadakı xəbər proqramlarında sanki bir filmi seyr edən kimi seyr edirlər. Gördükləri qorxunc mənzərələrdən içlərində yaranan mərhəmət duyğusunu isə "mən nə edə bilərəm ki", "bu dünyanı tək başıma mən xilas edə bilmərəm" kimi səhv məntiqlərlə ört-basdır edir, bu şəkildə vicdanlarını rahatlaşdırırlar. Halbuki, ağıllı insan dünyanı qana bulayan ideologiyalarla fikri mübarizə aparar. Quranda uca Allahın bu mövzuda bildirdiyi hökm olduqca açıqdır:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

## Vicdan əzabından qurtulmağın yeganə yolu Allaha təslim olmaqdır

**Doğrusu, insan özü-özünə şahiddir! Öz bəhanələrini ortaya atsa belə". (Qiyamət surəsi, 14-15)**

Yuxarıdakı ayələrdə bildirildiyi kimi, hər insan vicdani olaraq doğruları bilir, lakin bu doğruları tətbiq etmək nəfsinə çətin gəldiyi üçün bir çox insan müxtəlif bəhanələr irəli sürür. Ancaq bu insanlar irəli sürdükləri bəhanələrlə də rahat olmurlar. Əksinə, vicdanlarını susdurduqları üçün çətin həyat sürürlər. Bu dünyada müxtəlif bəhanələrlə vicdanlarını müəyyən qədər rahatlaşdırsalar da, müvəqqəti təmin etdikləri bu vəziyyətin qarşılığı axirətdə sonsuza qədər sürən əzab olacaq. Bu insanların yeganə yolu Quran əxlaqına uyğun yaşamaq və Allahdan bağışlanma diləməkdir. Uca Allah səmimi qəlblə Özünə yönələn qullarının günahlarını bağışlayacağını Quranda belə müjdələmişdir:

**Ey iman gətirənlər! Allaha səmimi olaraq tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızdan keçsin və sizi... (ağacları) altından çaylar axan Cənnət bağlarına daxil etsin. (Təhrim surəsi, 8)**



# YATARAQ HƏYATDA QALAN CANLILAR

Yuxu həşəratlardan məməlilərə qədər bütün canlıların təbii qidasıdır. Canlıların bəzisi buz üzərində üç dəqiqə, bəzisi bir budaqdan yapışıb fasiləsiz 20 dəqiqə yataraq bu qidanı qəbul edir. Aralarında tək ayaq üstündə, bir gözü açıq və hətta üzərkən yatanları da var. Ancaq canlıların bir çoxunun özlərini qoruyan yuxuları var ki, bu yuxu həftələrlə, hətta aylarla davam edə bilər: qış yuxusu...

## Həyatı dayandıran qış fəsli

Qış fəsli bir çox canlı üçün həyatın bir növ dayandığı mərhələdir. Qış boyu bitkilərin çoxu böyüməni dayandırır. Bu, həyatlarını davam etdirmək üçün lazımi tədbirdir. İstiqanlı heyvanlar üçün vəziyyət daha fərqlidir, onlar da bir növ həyatlarını dayandırırlar. İstiqanlı canlılar bədən temperaturlarını müəyyən dərəcədə saxlamalıdırlar. Ancaq bədən temperaturunu qorumaq çox böyük problemdir, çünki məməlilərin bədən temperaturu ətraf mühitin temperaturundan çoxdur. Bu yüksək temperaturu əldə etmək üçün artıq enerjiyə ehtiyacları vardır ki, bunu da ancaq qidalardan əldə edə bilərlər. Ancaq qışda heyvanlar çətinliklə yem tapırlar. Buna görə, bir çox quş növü uca Allahın ilhamı ilə payızda isti cənub ölkələrinə köç edərək bu problemdən xilas olmağa çalışır. Quşlar kimi bəzi böyük otyeyən məməlilər də köç edirlər. Ancaq bəzi məməli heyvanlar üçün bu cür səfər qeyri-mümkündür. Buna görə də fərqli metodla özlərini qorumağa çalışırlar, bu metod qış yuxusudur...

## Qurbağa

Bəzi qurbağaların qış yuxusu zamanı bədənlərində buz kristalları əmələ gəldiyi aşkar edilmişdir. Boz ağac qurbağası və bahar qurbağası kimi növlərin hamısı şaxtalı qışın hökm sürdüyü coğrafi ərazilərdə yaşayırlar. Qış yuxusuna getdikdə bu canlılarda heç bir həyat izinə rast gəlinmir. Ürək döyüntüləri, tənəffüs və qan dövranı tamamilə dayanır.

Ağac qurbağasının və digər canlıların ən əsas

xüsusiyyəti isə bol miqdarda qlükoza hasil etmələridir. Qlükoza hüceyrələrdən suyun çəkilməsinin qarşısını alır, beləcə, hüceyrə büzülmür. Beləliklə, qurbağanın hüceyrələri donmadan zərər görmür.



## Tısbağa

Oktyabr ayından etibarən havalar soyuduqca və yem azaldıqca tısbağaların bədən fəaliyyətləri azalır və özlərini qorumaq üçün yuxuya gedirlər. Ürək döyüntüləri və tənəffüsləri yavaşlayır. Oktyabr-mart ayları qış yuxusu ilə keçir.

## Ağ ayı

Balalamağa hazırlaşan dişi ağ ayı qış yuxusuna getdikdə heç enerji sərf etməmək və balalarının daha yaxşı qidalanmasını təmin etmək üçün maddələr mübadiləsinin sürətini zəiflədir. 7 ay ərzində maddələr mübadiləsindəki yağı zülala çevirir və balalarını qidalandırır. Bu 7 ayda özü heç qidalanmır. Ürək döyüntüsünü dəqiqədə 70-dən 8-ə salır və maddələr mübadiləsini yavaşladır. Bu dövrdə yemək yemədiyinə görə, təbii ehtiyacları da olmur. Beləcə, balalarını doğacağı dövrdə artıq enerji sərf etmir.



## Soyuqdan qoruyan qalxan: qış yuxusu

Qütblərdə yaşayan canlıların qalın kürkləri onları soyuqdan qoruyur. Ancaq bəzi kiçik məməli heyvanlar qalın kürklərinə baxmayaraq, temperaturu tez itirir və təcili enerji əldə etməli olurlar.

Bundan əlavə, bəzi canlıların kürkü o qədər də qalın deyil, buna görə də onlar bədənlərini isti saxlayan oyuqlara, torpağın altında qazdıqları tunellərə sığınırlar. İsti yuva ilə yanaşı, yemə də ehtiyacları var. Bəzi siçan növləri buna görə, qidanın da bol olduğu dövrlərdə bədənlərində yağ ehtiyatı saxlayırlar. Ancaq xüsusilə həşəratlarla qidalanan canlıların bu cür imkanı yoxdur və həyatda qalmaq üçün mümkün olduğu qədər az enerjidən istifadə etməlidirlər. Bunu isə ancaq qış yuxusu ilə bacarırlar.

Qış yuxusunda bədən temperaturu normadan aşağı (38ºC-dən 10ºC-yə) düşür və ürək döyüntüləri yavaşlayır (4 saniyədə 1 dəfə döyünür). Bu dərin yuxu zamanı bəzi heyvanlar hətta ölü kimi görünürlər.



## Heyvanlardakı möcüzəvi qış şüuru

Qış yuxusuna gedən heyvanlar möcüzəvi şəkildə bütün yaz boyu sanki qış üçün hazırlıq gördüklərini dərk edirmiş kimi hərəkət edirlər.

Hazırlıq olaraq, əvvəlcə, öz çəkilərindən iki dəfə



artıq kökəlirlər. Qışda bədənlərinin nə cür çətinliklərlə qarşılaşacağını, uzun yuxu dövründə heç nə yemədən həyatda qalmalı olduqlarını sanki hesablayaraq hərəkət edirlər.

Qış yuxusuna gedən heyvanların digər möcüzəvi davranışı isə doğulduqları andan etibarən qarşılaşdıqları ilk qış ayında temperaturun düşəcəyini, bütün bitki örtüyünün qar altında qalacağına görə heç bir qidanın qalmayacağını və buna görə, yay boyu kökələrək bədənlərində ehtiyat qida toplamalı olduqlarını bilmələridir. Bunu bir körpənin doğulduğu anda qarşılaşacağı bütün çətinlikləri bilərək bunun üçün tədbir görməsinə bənzədə bilərik. İnsanlar üçün belə vəziyyət qeyri-mümkündür. Ancaq heyvanlar Allahın ilhamı ilə hərəkət edərək bu möcüzəvi davranışı doğulduqları andan etibarən həyata keçirirlər.

Şüurlu insan belə bədən temperaturu və ürək döyüntüsü kimi orqanizmin funksiyalarını özü tənzimləyə bilməz. Bu, ancaq texnoloji və mürəkkəb cihazlarla qismən mümkündür. Halbuki, qış yuxusuna gedən heyvanların əksəriyyəti sanki bilirmiş kimi bədənlərinin artıq enerji sərf etməsinin qarşısını almağa çalışırlar.

Bu uzun yuxu əsnasında heyvanın bədən temperaturu yarıya düşür. Ürək, qaraciyər və digər orqanların işləməsi üçün az enerji tələb olunduğuna görə, tənəffüs və ürək döyüntüləri həddindən artıq yavaşlayır. Ancaq bəzi heyvan növləri çətin qış şəraitində bu tədbirlərə baxmayaraq, soyuqdan donma təhlükəsi zamanı dərhal oyanaraq bədən temperaturlarını artırır və yenidən yuxuya gedirlər. Bu cür dəqiq funksiyaları yuxuda həyata keçirən heyvanlar bütün bunları özləri dərk edə bilməzlər. Bu canlılara bütün heyranedici davranışlarını aləmləri yoxdan yaradan, sonsuz mərhəmət sahibi uca Allah ilham edir.

## Sibir ayısı

Boz Sibir ayısı payızda kökəldikdən sonra yuvasına çəkilir və aylarla (4-7 ay) davam edən qış yuxusuna gedir. Ayının 37º olan bədən temperaturu qış yuxusu zamanı 5-6 dərəcə azalır. Buna baxmayaraq, ürək döyüntüləri və tənəffüsü daha da yavaşlayır. Buna görə, ümumi maddələr mübadiləsinin sürəti də 50-60-a düşür. Ayı bu dövrdə qidalanma da daxil olmaqla, heç bir həyati funksiyasını yerinə yetirmir. Bununla yanaşı, su itkisi də baş vermir. Çünki yuxu zamanı öz piyindən (lipidlərindən) əsas enerji və su mənbəyi kimi istifadə edir.

## Ayılar

Ayılar yay fəslində gündə 20.000 kalori qəbul edirlər. Normal şəraitdə gündəlik qəbul etdikləri kalorinin 4000-dən çox olmadığını nəzərə alsaq, bu rəqəmin nə qədər böyük olduğu daha yaxşı məlum olar. Xüsusilə qış yuxusuna getməzdən əvvəlki son günlərdə tərkibində qatran olan çətin həzm olunan bitkiləri yeyirlər. Bundan əlavə, ayılar qış yuxusu boyu bədən temperaturlarını tənzimləyirlər, bunun üçün temperaturlarını müəyyən səviyyədə saxlamaq və rahat yatmaq üçün quru otlar və yarpaqlardan özlərinə yataq düzəldirlər. Habelə, yatış vəziyyətləri də bu temperaturu qorumağa xidmət edir.

## Yarasa

Gecə quşları olan yarasalar qışı mağaralarda və ya kömür şaxtalarında keçirirlər, çünki bu yerlər qış yuxusu üçün lazım olan donma dərəcəsindən yüksək temperatura və rütubətə malikdir.

## Akulalar

İri akulalar da dənizlərdəki bir çox canlı kimi planktonlarla qidalanırlar. Şimal dənizində oktyabr ayında planktonlar azaldığına görə, akulalar qida axtararkən daha çox enerji sərf etməli olurlar. Buna görə, bir müddət sonra gücdən düşür, yemək axtarmaqdan əl çəkib dənizin dibinə çökür və qış yuxusuna gedirlər. Okeanın dərinliklərində aylarla hərəkət etmədən və qidalanmadan yaşayırlar. Bu zaman ürək döyüntüləri həddindən artıq yavaşlayır.

Qış yuxusuna gedən bütün heyvanların ortaq xüsusiyyəti bu möcüzəvi davranışlarına baxmayaraq, şüurlarının olmamasıdır. Halbuki, bu heyvanların əksəriyyəti sanki nə etməli olduqlarını bilirmiş kimi öz bədənlərini artıq enerji sərf etməkdən xilas etməyə çalışırlar.

Əlbəttə, bu canlıların qış yuxusuna getməzdən əvvəl xüsusi sistemlə hazırlıq görməsi Rəbbimizin ilhamı ilə baş verir. Sonsuz mərhəmət və elm sahibi uca Allah canlılardakı elmini ayədə belə bildirir:

**“Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır...” (Nəhl surəsi, 66)**





# Allaha qarşı daima səmimi və

**“...Səhvən etdiyiniz əməllərdə sizə heç bir günah yoxdur. Lakin qəlbinizin qəsdlə etdiyi işlərdə (sizə günah) var. Allah Bağışlayandır, Rəhmlidir”. (Əhzab surəsi, 5)**

Din Allah qorxusu əsasında qurulmuşdur. Ancaq Allahdan lazımi qədər qorxanlar dində səmimi ola bilərlər. Çünki Qurana baxdığımız zaman səmimiyyətin Allahdan qəlbi titrəyərək qorxu duyan və sadəcə Allahın razı olduğu davranışa yönələn insana məxsus olduğunu anlayırıq. Heç bir şey səmimi mömini əsl məqsədindən döndərə bilməz; qiyamət günü haqq-hesabını verə bilməyəcəyi bir şeyə yanaşdırmaz. Allah ayəsində ən xeyirli rəftarın bunun olduğuna belə diqqət çəkmişdir:

**“Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz”. (Tövbə surəsi, 109)**

Qurana baxdığımız zaman möminlərin əsla səhvə yol verməyən insanlar deyil, əksinə, səhv edən, amma dərhal tövbə edərək bağışlanma diləyən insanlar olduqlarını görərik. Allaha qarşı qəlbi titrəyərək qorxu duyan mömin yaşadığı hər an istənilən davranışın ən gözəlini etmək üçün səy göstərir. Bunu edərkən unudub yanıla bilər, ya da səhvə yol verə bilər ki, Quranda möminlərin böyük və ya kiçik bir çox səhvlərindən bəhs edilir. Lakin mühüm olan edilən səhvdən səmimiyyətlə, bir daha əsla təkrar etməməyə qərar verərək vaz keçməkdir. İnsanın bir dəfə iman edib sonra bütün həyatını nöqsansızlıq içində keçirməsi kimi bir hal onsuz da mümkün deyildir; dünya bir imtahan və tərbiyə yeridir. Bundan əlavə, mömin səhv etdiyi zaman hər dəfə Allaha qarşı acizliyinin fərqinə varır. Buna müvafiq olaraq, Allah Quranda hər cür səhvi etsə belə, peşmançılıqla, səmimi və dürüst olaraq tövbə edən, davranışlarını düzəldənləri bağışlayacağını vəd etmişdir.

İslam dini insanların ən azad və rahat şəkildə yaşamalarını təmin edir. Halbuki, bugünkü cəmiyyətlərdə səhvlərə qarşı göstərilən reaksiyalara görə, insanların çoxu davranışlarını cəmiyyətin meyarlarına görə müəyyənləşdirir. Səhv edən özünü nə qədər dəyişdirirsə dəyişdirsin, cəmiyyətin ona baxış bucağı o qədər də dəyişməz. İnsan etdiyi yanlış rəftarla az qala damğalanır. Bu da cahil insanı səmimiyyətsizliyə aparır. İnsan hiyləgər üsullarla özünü insanların gözündə böyütməyə çalışır. Daima insanların özü haqqında nə fikirləşəcəklərini hesablayır.

Halbuki, bu cür zülmdən qurtulmağın ən əsas şərti Allaha qarşı səmimiyyət və dürüstlükdür. Çünki din “insanlar nə deyər” mövzusunu tamamilə aradan qaldırır və möminləri səmimiyyəti azaldan, dürüstlüyün qarşısını alan hər cür hərəkətdən uzaqlaşdırır.

Səmimiyyət ancaq vicdanla düşünərkən və Allahın hər zaman özünü izlədiyinin şüurunda olarkən üzə çıxar. İnsanların düşüncə və istəklərinə görə hərəkətlərinizi müəyyənləşdirməyin sizi səmimiyyətdən uzaqlaşdıracağını əsla unutmayın. Allahı unudub insanların razılığını nəzərdə tutaraq edilən bütün hərəkətlər səmimiyyəti zədələyəcəkdir. Allahın öz qullarını hər an gördüyünü, bildiyini və hərəkətlərinə şahid olduğunu heç vaxt yaddan çıxarmadan Qurana görə hərəkət etmək isə səmimiyyəti gətirəcəkdir.



# dürüst olmağı əsla unutmayın

Səhv edilən şey nə olursa olsun, dürüstlükdən əsla dönməməyi təmin edən şeyin Allahdan başqa heç kimdən qorxmamaq olduğunu əsla unutmayın. Şeytan daha çox insanlar arasında alçalma, ədalətsizliyə məruz qalma, zərər gəlmə kimi düşüncələrlə insanları səmimiyyətsizliyə sürükləyir. Halbuki, bu, boş və əsassız qorxudur. Çünki ən mühüm olan Allahın razı olması və bağışlamasıdır ki, dünyada da, axirətdə də cəza və mükafat yalnız Allahdandır. Hər kəs səhvə yol verə bilər. Mühüm olan xatırladıqdan və fərqinə vardıqdan sonra bu səhvinə görə Allaha tövbə edib səhvindən vaz keçməkdir. Əskikliyini və rəftarını düzəltməsindəki həssaslıq o insanın səmimiyyətini göstərəcəkdir. Heç bir səhvə yol verməyən insan olmadığına görə, Allaha qarşı ən səmimi və dürüst davranan ən üstün olacaqdır.

Səmimi insan etdiyi hər səhvdə Allaha qarşı acizliyini bir daha xatırlayaraq Allaha yönəlib dönər. Çünki səhvləri bağışlayacaq olan yalnız Allahdır, insanlar deyil. Başqa bir deyişlə, insan səhvinə görə Allaha səmimi olaraq tövbə etdikdən sonra artıq onun üçün insanların nə fikirləşdiklərinin heç bir əhəmiyyəti yoxdur. İnsanların haqqında nə fikirləşdiklərinə əhəmiyyət verən, onların razılığının ardınca düşən kəslər yanlışlarını örtmək uğrunda yalanlar söyləyərək daha bir çox yanlışlara sürüklənirlər. Halbuki, əslində, insanları aldatmış olsalar belə, Allah hər şeyi bilir. Siz dürüst olmayan, səmimiyyətsiz insanların ən çox özlərinə zülm etdiklərini əsla unutmayın. Allah heç kəsə gücünün yetdiyindən artıq bir şey yükləməmiş, səmimi olan insanların unutduğu və ya yanıldığı zaman etdikləri xətaları isə bağışlayacağını vəd etmişdir. Bu, inananlara Rəbbimizin böyük müjdəsidir. Allah bir ayəsində belə buyurur:

**“Allah heç kəsə qüvvəsi çatacağından başqasını yükləməz. (Hər kəsin öz nəfsinin) Qazandığı (xeyir) lehinə, qazandırdıqları (şər işlər də) əleyhinədir. “Rəbbimiz, unutduqlarımıza və yanıldıqlarımıza görə bizi məsul tutma! Rəbbimiz, bizə bizdən əvvəlkilərə yüklədiyin kimi ağır yük yükləmə! Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Mövlamızsan! Kafirlərə qarşı bizə yardım et!” (Bəqərə surəsi, 286)**

Həmçinin unutmayın ki, insanın həqiqi bir səmimiyyətlə bağlanmalı olduğu yalnız Allahdır. Bir insan cahil ola bilər, Allahı razı etmək üçün yerinə yetirməli olduğu bəzi şeyləri də bilməyə bilər. Amma Allah səmimi olaraq Özünə yönələn qullarına mütləq doğrunu göstərər, onları hidayətə çatdırar. Mühüm olan insanın səmimi qəlblə Allaha bağlanmasıdır. Allah Özünə təslim olanların əsla ziyana uğramayacaqlarını bu cür müjdələmişdir:

**“Kim yaxşı əməl sahibi olaraq üzünü (özünü) Allaha təslim edərsə, artıq, həqiqətən, o, qopmayan bir dəstəkdən yapışmışdır. Bütün işlərin sonu Allaha qayıdır”. (Loğman surəsi, 22)**

Elə isə siz də qarşınıza çıxan saysız xatırlatmaları görməzlikdən gəlməyin və Allaha səmimi bir qəlblə yönəlməyin dünyada və axirətdə tək qurtuluşunuz olduğunu unutmayın.



# ƏN TƏBİİ DEZİNFEKSİYA EDİCİ: GÖZ YAŞI

Orqanizmimizdə həyati əhəmiyyətə malik bir çox maye ifraz olunur. Bunlardan biri də göz yaşıdır. 98.2 %-i sudan ibarət göz yaşı tərkibində fərqli miqdarlarda müxtəlif maddələr olan çox xüsusi mayedir. Qalan hissəsində qan plazması ilə eyni miqdarda sidik cövhəri və plazmadakından daha az miqdarda qlükoza, duzlar və üzvi maddələr yerləşir. Göz yaşının bu möhtəşəm birləşməsi sağlam görmək üçün çox vacibdir.

Bəzi insanların sadəcə duzlu su olduğunu zənn etdiyi göz yaşı gözü necə qoruyur?
Sağlam, aydın görmək üçün niyə göz yaşına ehtiyac var?

Göz yaşı daha az ifraz olunduqda hansı xəstəliklər meydana gəlir?

## Göz yaşının funksiyaları

Göz yaşının tərkibindəki birləşmələr yaxşı, aydın görməni təmin edir. Birləşmələrin miqdarında və ya quruluşunda ən kiçik fərq olarsa, gözə infeksiya düşər və ya gözümüz aydın görmə xüsusiyyətini itirər. Göz yaşının funksiyalarını 4 əsas başlıq altında sadalamaq olar:

-Gözün səthini nəmləndirmək və göz quruluşunun vuracağı ziyanın qarşısını almaq

-Mikroskopik cəhətdən nahamar olan göz səthini optik cəhətdən hamarlaşdırmaq

-Gözün buynuz qişasına lazım olan oksigen və digər qida maddələrini təmin etmək

-Gözü bakteriya və infeksiyalardan qorumaq

## 3 müxtəlif təbəqə, 3 müxtəlif funksiya

Kompleks quruluşa malik göz yaşını təşkil edən birləşmələr 3 təbəqədə qruplaşdırılmışdır:

Yağ təbəqəsi: göz yaşının ən üst təbəqəsidir. Bu təbəqə sayəsində altdakı maye təbəqənin buxarlanaraq funksiyasını itirməsinin və göz yaşının alt göz qapağından axıb getməsinin qarşısı alınır. Yağ ifraz edən vəzlərin yerləşdiyi təbəqə çox nazik olmasına baxmayaraq, göz yaşının kənara axmasına və buxarlanmasına mane olur.

Maye təbəqə: bu təbəqə göz yaşının əsas təbəqəsidir. Yağ təbəqəsinin altında, ortada yerləşir. Üç təbəqə arasında ən qalınıdır. Duz, zülal və lizozim adlı xüsusi kimyəvi maddədən ibarət mürəkkəb quruluşu var.

Maye təbəqə gözün buynuz qişasını qidalandıran oksigen daşıyır, tullantı maddələrini buynuz qişadan uzaqlaşdırır, buynuz qişada infeksiya törəməsinin qarşısını alır.

Görüntülərin normal olması üçün gözün buynuz qişasındakı su həcmi sabit miqdarda qalmalıdır. Əgər bu nisbət pozulsa, buynuz qişa şişər və forması pozular. Maye təbəqə buynuz qişadakı su miqdarını tənzimləyərək görüntü keyfiyyətinin yüksək olmasını təmin edir.

Selik təbəqəsi: gözün səthində yerləşən konyuktiva adlı incə qılafdakı hüceyrələr tərəfindən ifraz edilir. Gözün üzərində yerləşir, göz yaşının ən alt təbəqəsidir. Səthindəki epitel qatı hidrofobikdir, yəni suyu sevməyən, kənar edən quruluşu var. Əgər bu təbəqə maye təbəqənin yerində olsaydı, gözün üzərində dayana bilməz, ona görə də bir işə yaramazdı. Selik təbəqəsində gözün üstündə dayanan musin adlı xüsusi kimyəvi maddə var. Göz yaşı bu maddə və selikli təbəqə sayəsində yerin cazibə qüvvəsinə qarşı müqavimət göstərərək gözün ön səthində dayana bilir.

## Göz yaşı ifrazının miqdarı nə üçün vacibdir?

Göz yaşı ancaq buynuz qişanın qurumasının qarşısını alacaq və göz almasının səthinin sürüşkənliyini təmin edəcək miqdarda ifraz olunur. Beləcə, göz hərəkət etdikdə göz qapağının daxili hissəsi ilə gözün üstü arasında sürtünmədən qaynaqlanan narahatlıq baş vermir.

Göz yaşını təşkil edən birləşmələrin kifayət miqdarda ifraz olunmaması və ya bir birləşmənin əksik olması gözün səthində quru nöqtələrin əmələ gəlməsinə səbəb olar. Bu təqdirdə, gözlə göz qapağı arasında daima sürtünmə baş verər və gözün hər hərəkəti bizim üçün əziyyətə çevrilərdi. Məsələn, göz yaşı quruluğu olan xəstələrdə gözlərdə daima yanma və gözün içinin qumla dolu olması hissi olur. Gözlər batır, qaşınır, şişir, qızarır və xəstəliyin ağır mərhələlərində xəstə görmə qabiliyyətini itirir.

## Təkamül nəzəriyyəsini tamamilə təkzib edən reduksiyaedilməz kompleksklik

Süni göz damcısından daha üstün xüsusiyyətlər malik olan və insan orqanizmində hasil edilən göz yaşı müxtəlif kimyəvi maddələrdən təşkil olunmuşdur və bu maddələr həssas nisbətdə birləşirlər. Bundan başqa, göz yaşı ilə birlikdə göz yaşını ifraz edən vəzlər, avtomatik göz yaşı ifraz etmə mexanizmi və ifrazat kanalları da var. Bunları düşündükdə göz yaşının təsadüfən əmələ gəldiyni və təsadüfən gözə yerləşdiyini iddia etmək ağıl və məntiqdən kənardır. Buna görə, göz yaşının təsadüfən əmələ gəldiyini iddia edən elm adamları cavablaya bilmədikləri bəzi suallarla üzləşirlər:

İnsan orqanizmində göz üçün həm bu qədər güclü təmizləyici funksiya yerinə yetirən, həm də gözə heç bir zərər verməyən maye necə sintezlənmişdir?

Əgər göz mərhələ-mərhələ əmələ gəlibsə, bu ideal maye "təsadüfən" əmələ gələnə qədər göz necə qorunub?

Göz yaşı olmadan gözün xarici amillərdən qorunması və təbii baxımının öz-özünə edilməsi mümkün deyil. Belə olduqda, göz yaşı olmayan göz təkamülçülərin ssenarilərində iddia etdiklərinin əksinə, təsadüfən əmələ gələ bilməz, bir müddət sonra funksiyasını itirib əsla qüsursuz quruluşunu əldə edə bilməzdi. Bu fakt gözün reduksiyaedilməz kompleksiliyinin ən bariz nümunələrindən biridir.

Unutmaq olmaz ki, göz yaşı indiyə qədər yaşamış və hal-hazırda yaşayan bütün insanlarda var. Hər kəsdə eyni xüsusiyyətlərə malikdir. Aydındır ki, gözün bircə hissəsinin belə təsadüfən əmələ gəlməsi qeyri-mümkündür. Gözü tam halda yaradan, hər insanda eyni xüsusiyyətlərin olmasını təmin edən üstün güc sahibi Allahdır. Göz Allahın qüsursuz yaratmasının təcəllilərindən biridir. Allahın sonsuz yaratma elmi Quranda belə xəbər verilir:

**O Rəbbin ki, səni yaratdı, düzəldib qaydaya saldı. Sənə Özü istədiyi surətdə biçim verdi. (İnfitar surəsi, 7-8)**

## Göz yaşı necə dezinfeksiya edir?

Çox insanın ancaq ağladıqda axan duzlu su hesab etdiyi göz yaşı xüsusi bir mayedir. İlkin funksiyası gözü mikroblara qarşı qorumaqdır. Tərkibindəki lizozim fermenti bir çox bakteriya növünü parçalayır və mikrobları öldürür. Lizozim sayəsində göz infeksiyalardan qorunur.

Bu maddə binaları mikroblardan təmizləmək üçün istifadə edilən güclü dezinfeksiyaedicilərin tərkibindəki maddələrdən də təsirlidir. Bəs bu cür güclü dezinfeksiyaedici necə olur ki, göz kimi həssas orqana heç bir zərər vermir və əksinə, gözü mükəmməl qoruyur? Bu, Allahın üstün yaratma sənətinin nümunələrindən biridir. Yaradılışın hər xüsusundakı möhtəşəm uyğunluq, eyni şəkildə, göz və göz yaşına da aiddir.

Gözdə həm də yağlama sistemi mövcuddur. Bu sistem gündə təxminən yüz min dəfə dörd tərəfə çevrilən gözün bu hərəkətlər nəticəsində aşınmasının qarşısını alır.

## Allahın bütün müsəlmanlara əmri:

# İSLAM BİRLİYİ

## üçün mübarizə aparmaq

*Dünyada müsəlmanlara yönəldilmiş təzyiq siyasətinin həlli nədir?*

*Müsəlman ölkələrindəki vəhşiliklərə qan tökülmədən elm, ağıl və biliklə necə son qoymaq olar?*

Bu gün İslam dünyasının qanayan yarası olan Fələstin, İraq, Şərqi Türküstan, Suriya, Pakistan, Əfqanıstan, Birma və Patanidə müsəlmanların böyük əksəriyyəti 100 ildən çoxdur ki, əzilir və təzyiq görür. Müsəlman xalq demək olar ki, hər gün yadelli əsgərlərin və ya hökumət mənsublarının hücumuna məruz qalır, bu ölkələrdə vətəndaş müharibələri, qarşıdurmalar, aclıq və insan haqlarının tapdanması ən yuxarı səviyyədə baş verir. Xalq bu qarşıdurmalarda şəhid edilir, şəhid olmayanlar da ya düşərgələrə sürgün edilir, ya da itkin düşür və bir daha onlardan xəbər almaq olmur. Xalqın böyük qismi yurd-yuvasından çıxmağa məcbur edilir, məcburi köçə etiraz edənlər isə şəhid edilirlər. Qadınların təcavüzə məruz qaldığı, məscidlərin talan edildiyi, müsəlmanların evlərinə, tarlalarına hücum edilərək əziyyət gördüyü bu ölkələrdə şəhid edilənlərin sayı yüz mini ötüb keçir. Bu ölkələrdəki son vəziyyəti əks etdirən və KİV-də çıxan bəzi xəbərlər müsəlman dünyasının başına gələn dəhşəti nümayiş etdirir.

Ancaq müsəlman ölkələrində baş verən bu hadisələrdən sonra İslam aləmində bəzi dəyişikliklərin olacağını Peyğəmbərimiz (s.ə.v) hədislərində müjdələyir. Peyğəmbərimizin (s.ə.v) *"... HEÇ BİR TƏRƏFİN XİLAS OLA BİLMƏYƏCƏYİ FİTNƏ ZÜHUR EDƏCƏK, BU FİTNƏ QALDIĞI YERDƏN DƏRHAL BAŞQA TƏRƏFƏ YAYILACAQ VƏ BU VƏZİYYƏT BİR MÜNADİNİN SƏMADAN SƏSLƏNƏRƏK: "EY İNSANLAR, ƏMİRİNİZ ARTIQ MEHDİDİR!" - DEYƏNƏ QƏDƏR DAVAM EDƏCƏK* (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, səh. 22)" hədisindəki müjdəsinə görə, fitnələrlə dolu, qorxu və zorakılığın hakim olduğu bu qaranlıq dövrün dəyişməsi uca Allahın hz. Mehdini (ə.s) göndərməsi vasitəsilə mümkün olacaq (doğrusunu Allah bilir). Ancaq müsəlman ölkələrində davam edən bu zülmün dayanması üçün qardaş-bacılarımızın da üzərinə bəzi vəzifələr düşür.

Unutmaq olmaz ki, zülmə göz yummaq zülm etməkdir. İslam dünyasında axan hər damla qandan, dağıdılan hər evdən, şəhid

olan hər məsumdan, yaralanıb şikəst qalan hər məzlumdan, aclıq və yoxsulluq içində yaşayan hər insandan Türk-İslam Birliyi üçün cəhd göstərməyən hər müsəlman məsuldur.

*Zülmün sona çatmasını istəyən qardaş-bacılarımız: "Ya Rəbb, İttihadi-İslamı bir an əvvəl meydana gətir", - deyə dua etməlidirlər*

Hədislərə və İslam alimlərinin açıqlamalarına görə, hz. Mehdi (ə.s) hicri təqvimi ilə 1400-cü ildən etibarən vəzifəsinə başlayacaq, dəccaliyyətin silahı olan darvinizm və materializmi tam mənada susduran ideoloji mübarizə aparacaq, parçalanmış İslam aləmini birləşdirəcək, Quran əxlaqının dünyaya hakim olmasına səbəb olacaq. "Hz. Mehdinin (ə.s) böyük mübarizəsinə necə yardım edə bilərəm?" - deyə düşünən müsəlman qardaş-bacılarımız hər şeydən əvvəl müsəlmanlar arasındakı qardaşlığın möhkəmlənməsi, sevgi və dostluğun güclənməsi, İslam aləminin birləşməsi üçün fəaliyyət göstərməlidirlər. Allah Quranda müsəlmanların birləşməsini bildirmişdir. Birləşmədikdə mənəvi güclərini itirəcəklərini və əzilib məğlub olacaqlarını xəbər vermişdir:

**Kafirlər də bir-birinin dostlarıdır. Əgər siz bunu etməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar. (Ənfal surəsi, 73)**

Elə isə dəccaliyyətin bütün cəbhələrinin birləşərək müsəlmanlara təzyiq göstərdiyi axırzamanın bu ən çətin dövründə müsəlmanlar da təcili surətdə birləşməlidirlər. Yer üzündə fitnə-fəsadın sona çatması üçün iman gətirənlər bir-biri ilə dost olmalı, ittifaq qurmalı, birlik və bərabərlik içində olmalıdırlar. Türk-İslam dünyası bu birliyi istəməlidir. Birlik istəməyənin ayrılıq istədiyi məlum olur və ayrılığın Türk-İslam dünyasına heç bir faydası yoxdur. MÜSƏLMANLARIN GÜCÜ, QÜVVƏSİ VƏ MƏNFƏƏTİ BİRLİK OLMAQDADIR.

*Məzhəblər arasındakı çəkişmələr sona çatmalı, fərqlər ayrı-seçkilik kimi görünməməlidir*

Eyni Allaha, eyni kitablara, eyni peyğəmbərlərə inanan, eyni qibləyə üzünü tutan insanların bölünməsi, hətta düşmənçilik dərəcəsində bir-birlərinə qarşı cəbhə alması ancaq şeytanın təşviqi ilə meydana gəlmiş fitnədir. Bu fitnəni dərhal dayandırmaq vacibdir. Sünni, şiə, vəhabi, cəfəri və digər məzhəblərə mənsub bütün





qardaşlarımız böyük təzyiq altında yaşayırlar.

Ancaq bunu da qeyd etməliyik ki, bu bölgələrdə yaşayan və zülm altındakı qardaş-bacılarımızın zülmə qarşı apardığı haqlı mübarizə mütləq Quran əxlaqına və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə uyğun olmalıdır. Darvinist, materialist, kommunist ideologiyaların təsiri və təlqinləri ilə aparılan zorakılıq və şiddətə əsaslanan mübarizə həm Quran əxlaqına ziddir, həm də Allah belə bir mübarizədə zəfər nəsib etməz. Şiddət şiddəti doğurar, şiddətə əsaslanan mübarizə müsəlman qardaşlarımızın daha çox zorakılığa məruz qalmasına səbəb olar. Müsəlman qardaşlarımızın haqlı mübarizəsinin uğurla nəticələnməsi ancaq silahlı mübarizənin ideoloji mübarizəyə çevrilməsi və güclü maarifləndirmə ilə dəstəklənməsilə mümkündür. Bunun üçün də müsəlman xalqın təhsilli, mədəniyyətli, hüquq, diplomatiya və beynəlxalq siyasət sahəsində bilikli, eyni zamanda, Quran əxlaqına uyğun hərəkət edən güclü kadrlara ehtiyacı var.

Əlbəttə, müsəlman bacı-qardaşlarımızın arasında yüksək mədəni səviyyəyə malik, açıqfikirli çox sayda ziyalı var. Əsas odur ki, bu ziyalılar, gənclər maarifləndirilsin, doğru istiqamətləndirilsin. Bu, müsəlman qardaşlarımızın haqlı mübarizəsinin bütün dünyaya ən gözəl şəkildə izah edilməsində mühüm rol oynaya bilər. Buna görə, bütün qardaş-bacılarımızın özlərini mədəni cəhətdən təkmilləşdirməsi, anti-darvinist, anti-materialist, anti-kommunist fəaliyyət göstərməsi çox vacibdir.

Allah Quranın bir çox ayəsində möminlərin bir-birlərinin dostu olduğunu bildirmişdir. Buna görə, müsəlmanların bir-birlərini dost tutması, bir-birlərini qoruması və bir-birlərinə dəstək olması Allahın onlara əmridir.

Allah "Maidə" surəsində möminlərin bir-birlərini dost tutmasını belə bildirir:

müsəlmanlar din qardaşı olduqlarını dərk etməli, işgəncəyə məruz qalan, yurd-yuvalarından sürgün edilən, öldürülən, şikəst edilən müsəlmanların fəryadına cavab verməli, bu günə qədər onsuz da xeyli vaxt itirdiklərinə görə, daha artıq vaxt itirmədən dərhal hərəkətə keçməlidirlər. Unutmaq olmaz ki, birləşmək və ayrılığa düşməmək Allahın hamımıza fərz qıldığı hökmdür. Allahın bu hökmünü təcili yerinə yetirmək Allahın rizasına ən uyğun davranış olar.

## Müsəlman ölkələrindəki qardaş-bacılarımız zülmə qarşı elmlə mübarizə aparmalıdırlar

Dünyanın bir çox bölgəsində təzyiq və zülm altında yaşayan müsəlmanların başına gələnlər sadəcə KİV-lərdən öyrəndiyimiz bir neçə xəbərlə məhdudlaşdığına görə, İslam dünyasında bir çox insan bu bölgələrdəki zülmü tam mənası ilə dərk etmir. Halbuki, müsəlman

**Sizin dostunuz ancaq Allah, Onun elçisi və rüku edərək namaz qılan və zəkat verən möminlərdir. (Maidə surəsi, 55)**

Növbəti ayədə isə Allah möminlərin bir-birlərinə dost olduqları təqdirdə inkarçılara qarşı apardıqları mübarizədə mütləq qalib gələcəklərini belə bildirir:

**Hər kəs Allahı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

Müsəlman ölkələri axtardıqları sülh və əmin-amanlığı tapmaq üçün İttihadi-İslamın qurulmasına cəhd göstərməli, hz. Mehdidən (ə.s) bəhs etməlidirlər

***"BİR FİTNƏ OLAR, BUNU DİGƏR FİTNƏLƏR TƏQİB EDƏR, BİRİNCİLƏR SONUNCULARIN QARŞIDURMAYA ÇEVRİLMƏSİNİ QILINCLA QAMÇILAYAR VƏ BUNDAN SONRA BÜTÜN HARAMLARIN HALAL SAYILDIĞI FİTNƏ GƏLƏR. SONRA DA XİLAFƏT (MÜSƏLMANLARIN MƏNƏVİ LİDERLİYİ) YER ÜZÜNÜN ƏN XEYİRLİSİ OLAN HZ. MEHDİYƏ (Ə.S) EVİNDƏ OTURARKƏN GƏLƏR.*** (Kitab-ül Burhan fi Alametil Mehdiyyil Muntazar, səh. 26)" hədisində bildirildiyi kimi, müsəlman ölkələrində baş verən hadisələrdə təzyiq göstərən rejimlərə qarşı xalqın küçələrdə toplanması xalqın və dövlətin qüvvələrini qarşı-qarşıya qoymuş, silahla bir-birlərinə qarşı çıxmışlar. Halbuki, dəyişiklik küçə qarşıdurmaları, yağmalama, təcavüzkarlıq və zorakılıqla olmaz. Zorakılığa əsaslanan metodla meydana gələn dəyişiklik əsla insanların həsrətini çəkdiyi və ehtiyacı olan sülhü, rifahı və əmin-amanlığı gətirməz. Bəzi uğurlar və irəliləyişlər əldə edilə bilər. Ancaq daimi və tam həll yolu olmaz. Daimi və həqiqi həll ancaq Allahın və Rəsulullahın (s.ə.v) göstərdiyi yola tabe olaraq əldə edilə bilər. Allahın və Rəsulunun (s.ə.v) göstərdiyi həll yolu isə bütün İslam aləminin mənəvi lider ətrafında birləşməsi, Türk-İslam Birliyinin qurulmasıdır.

Küçələrdəki etiraz aksiyaları və verilən süni qərarların əvəzinə qətiyyət və israrla Türk-İslam Birliyinin istənilməsi şərtdir. Bunun üçün də Mehdiyyət daima gündəmdə tutulmalıdır.

Dünyanın bir çox bölgəsində bir növ əsir edilmiş qadınlara, uşaqlara, yaşlılara, işgəncə görən məsum insanlara, ibadətxanaları yandırılıb dağıdılan müsəlmanlara, əsir düşərgələrində amansız şəkildə işlədilən məzlumlara görə bütün İslam aləmi cavabdehdir. Allah "Nisa" surəsinin 75-ci ayəsində müsəlmanların ehtiyac içindəki məzlumlar üçün cəhd göstərməli olduğunu bildirir:

Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda cəhd göstərmirsiniz?





Hörmətli Adnan Oktar: İttihadi-İslamı israrla anlamaq istəmirlər

**ADNAN OKTAR:** ***İttihadi-İslam Quran ayələri ilə açıqlanmışdır, fərzdir, inkar edilməməlidir. Bəzi şəxslər anlamaq istəməsə də, bir deyil, iki deyil, yüzlərlə ayə ilə fərz olduğu aydındır. İnsanlar bir bəla gəldikdə, əziyyət çəkdikdə bunu araşdırmalıdırlar. Məsələn, fərz edək ki, İraqa bəla gəlib. "Allah bu bəlanı niyə verdi?" - deməlidirlər. Niyə Əfqanıstana bəla gəlib? Niyə gəldiyini araşdırmalıdırlar. Məsələn, Liviya, Misir, Fələstin - hamısı araşdırmalıdır. "Biz namazımızı qılırıq, oruc da tuturuq, zəkat da veririk, həccə də gedirik, hətta dəfələrlə gedirik, ümrə ziyarəti də edirik, kəlimeyi-şəhadət də gətirmişik, amma Allah daima bəla verir, görəsən niyə?" - deyirlər. Ayədə bildirilib, İttihadi-İslam olmadıqda, Allah insanlara bəla verir. Bütün dünyada müsəlmanlar əziyyət görürlər. Allaha həmd olsun, bircə Türkiyədə rahatlıq var. Çox yerdə də bəlanın səbəbinin bu olduğunu Allah xəbər verir. "Otur, səhərə qədər on min zikir çək" - deyirlər. Qarşındakı insan cahildir. Səhərə qədər "Quranı oxuyub anla", - deyin; "Fiqh oxu, onu anla", - deyin. On min dəfə zikir, təsbih çəkə-çəkə oradaca yuxulayıb qalır. Allahı zikir etmək Quranı anlayıb Allahı fikrində tutmaq və Quranın hökmlərini yerinə yetirmək deməkdir. "100 min dəfə zikir etdim", - deyib öyünür. Biliyini artır, mədəniyyətini artır, təbliğ et, İslamı yay, İttihadi-İslamdan danış. Bunların fərz olduğu açıq-aşkardır, Qurandakı ayələrlə sabitdir. Bunu etmədiklərinə görə də Allah bəla verir. Bunu ağılla da anlamaq mümkündür. Çünki parçalanmış qüvvənin gücü olmaz, birləşdikdə güc qazanar. "Tək əldən səs çıxmaz", - deyirlər, budur, tək əllə heç nə etmək olmur. İki əllə olur, bunu qəbul etməlidirlər. Birləşmək üçün danışırlar, ancaq qısa, ümidsiz danışırlar, çünki birləşməyəcəklərini bilirlər. Çünki şiə sünnini, vəhabi şiəni, sünni heç birini qəbul etməz. Nurçu nəqşibəndini, nəqşibəndi Nur tələbəsini qəbul etməz. Həll yolu nədir? Həll yolu Mehdidir. Çünki Mehdi (ə.s) nə nurçu, nə nəqşibəndi, nə vəhabi, nə sünni, nə də şiədir, yəni heç bir məzhəbə mənsub deyil. Deməli, hz. Mehdinin (ə.s) rəhbərliyi altında birləşmək lazımdır. Ona görə, Peyğəmbərimiz (s.ə.v) bunu asanlıq, nemət və gözəllik kimi müjdələmişdir. Bunu israrla anlamaq istəməsələr, izdirab davam edər.*** (2 mart, 2012-ci il, A9 TV)



# Qolunuzdakı saatı bir müddət sonra niyə hiss etmirsiniz

Hər bir insanın dərisi gün ərzində geyimlərlə təmasda olur. Amma onları həmişə hiss etmir. Gecə yatarkən üstünə çəkdiyi yorğanla, qoluna taxdığı saatla, ya da oturduğu kreslo ilə təmasda olduğunu da daim qavramır. Bunun vacib səbəbi var. İnsan dərisindəki qəbuledicilər müəyyən müddətdən sonra beyinə və dəriyə təmas edən maddə ilə əlaqədar siqnalları göndərməyi dayandırırlar. İnsan dərisi onunla təmasda olan maddəyə qarşı vərdiş qazanır və onunla bağlı hisslər müəyyən müddətdən sonra dayandırılır.

Bu, Allahın bədənimizdə yaratdığı möcüzəvi bir sistem və mükəmməl xüsusiyyətdir. Bir çox insan bu cür təfərruatların fərqinə belə varmır. Amma onu da qeyd etmək lazımdır ki, heç bir narahatlıq duymadan yaşamaq mükəmməl sistemin qüsursuz şəkildə işləməsi ilə mümkün olur.

Bədəndəki öyrəşmə mexanizmi olmasaydı, geyinmək kimi adi bir hadisə insana böyük çətinlik yaradardı. İnsanın üzərindəki geyimləri daim hiss etməsi əziyyətə çevrilər və toxunduğu əşyalardan gələn siqnalları qəbul edəndə çətinlik çəkərdi. Daim geydiyi corabın ayağını nə qədər sıxdığını, saatın biləyində daim hərəkət etdiyini düşünmək məcburiyyətində qala bilərdi. Bu səbəbdən, rahat yata bilməz, istirahət edə bilməz, həyatı olduqca çətinləşərdi.



Hiss duyğusu bir nemət olduğu kimi, hissin zamanla itməsi də insana verilmiş böyük nemətdir. Tək bir xüsusiyyət insanın həyatını asanlaşdırır və onun rahat yaşamasına səbəb olur. Təkamülçülərin xəyali mexanizmlərinin isə insan bədəninin nəyə ehtiyacı olduğunu müəyyən edən şüuru yoxdur. Bu neməti insana təqdim edən bütün varlıqların bütün ehtiyaclarını ödəyən uca Allahdır.

**Sizə gələn hər bir nemət Allahdandır. Sonra sizə bir müsibət üz verdikdə Ona yalvarıb-yaxarırsınız! (Nəhl surəsi, 53)**



# QAN TƏZYİQİNƏ NƏZARƏT EDƏN QÜSURSUZ SİSTEM




Bədənimizdəki qan təzyiqi düşdüyü zaman qüsursuz sistem fəaliyyətə başlayır. Eynilə yanğın zamanı həyəcan qəbuledicilərinin alovun tüstüsünü müəyyən etmələri və anında həyəcan siqnalı vermələri kimi, bu sistem də ancaq həyəcan vəziyyətində, yəni qan təzyiqi düşdükdə dövrəyə girir.

Qan təzyiqinin aşağı olması insan üçün çox təhlükəlidir. Buna görə, həyəcan anında qan təzyiqini artırmaq üçün bir sıra tədbirlərin görülməsi vacibdir. Bu tədbirləri belə sıralaya bilərik:

**1. Qan damarları daraldılmalıdır.**

**2. Böyrəklərdən daha çox su əmilməli və qana qarışdırılmalıdır.**

**3. Ən qısa zamanda insanın su içməsi təmin edilməlidir.**

## Bəs bunlar necə təmin ediləcək?

Hər insanın bədənində anadangəlmə bənzərsiz sistem yerləşdirilmişdir.

Sistem belə işləyir: qan təzyiqi düşdüyü anda (yaxud qanda olan natriumun miqdarı azaldıqda) böyrəklərdə olan bəzi hüceyrələr vəziyyətdən xəbərdar olur. Bunlar həyəcan vericilər olan yukstaqlomerulyar (JGA) hüceyrələridir. Bu hüceyrələr renin adlı xüsusi maddə ifraz edirlər.

Hüceyrələrin qan təzyiqinin və ya natriumun miqdarının düşdüyünü təsbit etmələri bir möcüzədir. Ən əhəmiyyətlisi isə hüceyrələrin renin ifraz etmələridir. Çünki renin çoxmərhələli istehsal zəncirinin ilk halqasıdır. Qanın plazmasında olan və normal halda qana təsir etməyən bir zülal var. Bu zülal qaraciyərdə istehsal edilən angiotenzinogen zülalıdır. Heyrətamiz bir planın ilk mərhələsi burada başlayır. Çünki təkbaşına heç bir işə yaramayan angiotenzinogen və renin, əslində, bir-birləri ilə birləşmək üçün xüsusi olaraq hazırlanmışlar.

Burada düşündürücü bir məqam var: böyrək hüceyrələri və qaraciyər hüceyrələri bir-birlərindən uzaqdadır. Bu hüceyrələrin bir-birinə uyğun hissə istehsal etmələri bir möcüzədir. Bunun təkamülçülərin iddia etdiyi kimi, təsadüfən meydana gəlməsi qətiyyən mümkün deyil. Şübhəsiz, hər biri Allahın sonsuz elmi ilə yaradılmışdır.

Renin angiotenzinogen molekulunun quruluşunu dəyişdirir və yeni bir molekul angiotenzin I ortaya çıxır:

Renin + angiotenzinogen -> angiotenzin I

Ortaya çıxan bu yeni molekulun da bir təsiri yoxdur, çünki istehsal zənciri hələ bitməmişdir. Dövrəyə ağciyərdə olan ACA adlanan və yalnız angiotenzin I molekulunu parçalamağa yarayan bir ferment girir. Bu ferment sayəsində angiotenzin I daha fərqli bir molekul olan angiotenzin II molekuluna çevrilir:

Angiotenzin I + ACA fermenti -> Angiotenzin II

Bu məqamda yenidən düşünmək lazımdır: böyrək və qaraciyər hüceyrələrinin istehsal etdikləri iki müxtəlif molekul ortaya yeni bir

molekul çıxarmışdır. Böyrək və qaraciyər hüceyrələri ilə heç bir əlaqəsi olmayan ağciyər hüceyrələri də bu yeni molekulun birləşəcəyi fermenti istehsal edir. Üstəlik, bu fermenti molekullar birləşmədən əvvəl istehsal edir. Necə olur ki, ağciyər hüceyrələri hələ reallaşmamış bir hadisəyə və hələ istehsal edilməmiş bir maddəyə uyğun gələn ferment istehsal edirlər? Bu maddəni başqa maddəyə çevirən fermentin düsturunu haradan bilirlər? Şübhəsiz, ağciyər hüceyrələrinə bu məlumatları ilham edən tayı-bərabəri və bənzəri olmayan uca Allahdır.

Angiotenzin II fermentinin iki həyati vəzifəsi var: bunlardan birincisi qan damarlarının daralmasını təmin etməkdir. Angiotenzin II fermenti qan damarlarının ətrafında olan əzələləri xəbərdar edir və sıxılmalarını təmin edən mexanizmi hərəkətə gətirir. Beləliklə, əzələlər sıxılır, damar diametrini daraldır və qan təzyiqi artırılmış olur. Bu, birinci nəticədir.

Angiotenzin II maddəsinin ikinci əhəmiyyətli vəzifəsi isə möcüzəvi hormon olan aldosteronu iş başına çağırmaqdır. Angiotenzin II maddəsi böyrəküstü hüceyrələrə çatır və bu hüceyrələrə aldosteron ifraz etmələrini əmr edir. Bu da planın qüsursuzluğunun bir başqa dəlilidir. Çünki aldosteron böyrəklərə təsir edəcək və böyrəklər sidikdəki suyu geri əmərək qana qarışdıracaq. Beləliklə, qan təzyiqi artacaq. Bu da ikinci nəticədir.

Böyrək, qaraciyər və ağciyərin ortaq çalışması nəticəsində istehsal edilən angiotenzin II maddəsinin çox əhəmiyyətli bir vəzifəsi daha var: beyinin xüsusi nayihəsinə çatmaq və o nayihəni hərəkətə gətirmək. Bu, susama hissini oyandıran susama nayihəsidir.

Ancaq angiotenzin II maddəsinin qarşısında bir maneə var. Beyini qorumaq üçün qandan beyin toxumasına keçidi çətinləşdirən bir sistem var və buna qan-beyin baryeri deyilir. Bu sistem beyində 1-2 yerdədir və bu yerlərdən biri də susama nayihəsidir. Bu xüsusi yaradılış sayəsində beyinin susama nayihəsi xəbərdar edilir və insanda su içmək istəyi meydana gəlir. Qaraciyər, ağciyər və böyrəklərin bir plan daxilində ortaq istehsal etdikləri maddələr nizam içində birləşmiş və nəticədə qan təzyiqinin yüksəlməsinə səbəb olan hormonun ifraz olunmasını təmin etmişdir. Bunun üçün böyrək hüceyrələri, ağciyər hüceyrələri və qaraciyər hüceyrələrinin koalisiya meydana gətirmələri lazımdır.

Bu koalisiya qan təzyiqi düşdüyü zaman nə edəcəyini araşdırmaq məcburiyyətindədir. Bu araşdırma nəticəsində də qərar verməlidir: qan damarlarının diametrlərini daraltmaq və aldosteron hormonunun ifraz olunmasını təmin etmək.

Sonra yenidən uzun araşdırmalar aparıb böyrəküstü vəzlərin və damar əzələsi hüceyrələrinin anatomiyasını, iş sistemlərini analiz etməlidirlər. Daha sonra bu damarların sıxılması və böyrəküstü vəzlərin aldosteron ifraz etməsi üçün möcüzəvi bir düsturu, yəni angiotenzin II maddəsinin molekulyar proyektini təsbit etməlidir.

Bu molekulun necə istehsal ediləcəyinin təsbit edilməsi isə son işdir. Hər orqan bu molekulun istehsal mərhələsində bir məsuliyyət daşımalıdır. Çəkilən istehsal planı çərçivəsində üç mərhələli montaj sistemi hesablanmalı, hər orqana bir vəzifə verilməlidir. Böyrək hüceyrələri renin, qaraciyər hüceyrələri angiotenzinogen, ağciyər hüceyrələri də ACA istehsal etməyə qərar verməlidirlər. Sonra yığıncaq sona çatmalı və hüceyrələr aid olduqları yerlərə geri dönməlidir. Bu sistemin hər hissəsi möcüzələrlə doludur. İnsan bədənindəki hər hüceyrə xüsusi bir vəzifə üçün yaradılmış və xüsusi xüsusiyyətlərlə təchiz edilmişdir. İnsan bədənində meydana gələn bütün hadisələri Rəbbimiz yaratmışdır və insan bədənindəki hər detal da Onun sonsuz elminin dəlillərindən yalnız bir neçəsidir.

**Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)**



# İSLAMDA TƏHSİLƏ VERİLƏN ƏHƏMİYYƏT

İslam dini göndərildiyindən etibarən hər dövrdə dünyanı aydınladan işıq olub. Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) və Əshabi-kiram Quran əxlaqının insanlara qazandırdığı üstün və müasir mədəniyyət anlayışının ən gözəl təmsilçiləri olublar. Bu görkəmli sivilizasiyanın təməlində isə təhsilə verilən əhəmiyyət, elm, mədəniyyət və incəsənətə verilən dəyər çox böyük rol oynamışdır. Dövrümüzdə isə inkişaf edən texnoloji imkanların da vasitəsilə məlumat əldə etməyin, öyrənməyin və başqalarına öyrətməyin yolları tarixin heç bir dövründə olmadığı qədər artmışdır. Bu vəziyyət, eyni zamanda, axırzamanda olduğumuzun bir dəlilidir və bütün müsəlmanlar üçün mühüm öhdəlikləri də özü ilə gətirir.

Çünki İslam əxlaqının yayılması ilə meydana gələcək sülh və əmin-amanlıq şəraiti imanlı, bilikli, əxlaqlı, mədəniyyətli nəsillərin yetişdirilməsilə mümkündür. Bu məqsədlə, hər sahədə lazımi təhsilin verilməsi çox vacibdir.

İstər Quran əxlaqının təbliğində, istərsə də insanın Allahın nemətlərini görməsində mühüm rol oynayan elmin, başqa sözlə, təhsil və mədəniyyətin müsəlmanların həyatının mühüm hissəsi olduğu aydındır. Bununla bərabər, hər cəmiyyətdə fərdlərin özlərinə, ailələrinə, ətraflarına, ölkələrinə və bəşəriyyətə faydalı insan kimi yetişdirilməsinin də ancaq hərtərəfli təhsillə mümkün olduğu qəti həqiqətdir. Peyğəmbərimiz (s.ə.v) hər uşaq sahibinin uşağını gözəl yetişdirməli olduğunu bildirmişdir. Bəs İslam əxlaqının tələbinə uyğun təhsil anlayışı hansı bilikləri əhatə edir? Aldığımız təhsilin məqsədi nə olmalıdır? Elm, mədəniyyət və incəsənət sahəsində qabaqcıl olmağın əhəmiyyəti nədir? Hər sahədə bilikli və təcrübəli olmağın hansı faydaları var? Bu suallara ən gözəl cavab digər bütün məsələlərdə olduğu kimi, Quran ayələrində və Peyğəmbərimizin (s.ə.v) hədislərindədir.

## *Təhsil və bilik nə üçün vacibdir?*

**1. Hər sahədə təhsilli və bilikli olmaq Quran əxlaqına uyğun yaşamağın təbii nəticəsidir:**





Quran əxlaqına uyğun yaşayan möminlər gözəl əxlaqlarını və yüksək şəxsiyyətlərini Quran biliyi, müasir elmlər, mədəniyyət və incəsənət kimi sahələrdəki bilikləri ilə birləşdirərək İslamı ən gözəl şəkildə təbliğ edirlər. Bu sayədə digər insanlara nümunə olmağı və onların imanlarına səbəb olmağı ümid edirlər. İslamda yeri olmayan davranış formaları və düşüncələrlə ortaya çıxan bəzi cahil insanların Quran əxlaqını təmsil edə bilməyəcəyi çox aşkardır.

**2. Bilikli olmaq Allahın rizasını qazanmaq üçün gözəl yoldur:**

İman gətirənlər biliyi Allahın rizasını qazanmaq üçün gözəl yol hesab edirlər. Nə qədər bilikli olsalar, bunun imanlarının artmasına səbəb olacağını, Allaha yaxınlaşmaq məqsədilə elm öyrənmək üçün göstərdikləri cəhdin də, Allahın iznilə, saleh əməl olacağını bilirlər. Məsələn, kosmosu tədqiq edən imanlı elm adamı eyni tədqiqatları edən, ancaq iman gətirməmiş insandan çox fərqli düşünür. Kosmosda gördüyü hər şeyin Allahın sonsuz elminin dəlillərindən olduğuna şahidlik edir, acizliyini daha yaxşı anlayır. Bu yolla, imanı güclənir və ona verilən nemətlərə görə şükür edir. Əldə etdiyi hər məlumat onu ən doğru yola sövq edir, kəşf etdiyi hər təfərrüat Allahın sonsuz gücünə olan heyranlığını artırır. Allah Quranda bilik sahibi olmağın əhəmiyyətini belə bildirmişdir:

**De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?! Yalnız ağıl sahibləri ibrət alar!" (Zumər surəsi, 9)**

**3. Bilik sahibi olmaq Allaha olan sevgimizin və Allah qorxumuzun artmasına səbəb olur:**

Uca Allaha olan sevgi Onun yaratdığı varlıqlardakı üstün və qüsursuz xüsusiyyətləri oxuyub, araşdırıb öyrənməklə daha da artır. Yaradılış dəlilləri möminlərin üstün güc sahibi, hər şeyin yaradanı olan Rəbbimizdən lazım olduğu kimi qorxmasına da səbəb olur. Allah Quranda belə buyurmuşdur:

**Məgər Allahın göydən bir yağmur yağdırdığını görmürsənmi?! Sonra Biz onunla növbənöv meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli – ağ, qırmızı, tünd qara yollar əmələ gətirdik. İnsanların, heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır! (Fatir surəsi, 27-28)**

**4. Quran elmə təşviq edir və elmə yol göstərir:**

Elm Quranda bildirilən həqiqətlərə uyğun istiqamətləndirildiyi təqdirdə çox sürətlə irəliləyər və bəşəriyyətə daha çox xidmət edər. Allah Quranda insanlara göylər, yer, dağlar, ulduzlar, bitkilər, toxumlar, heyvanlar, gecə ilə gündüzün meydana gəlməsi, insanın öz doğuluşu, yağış və yaradılmış bir çox varlıq üzərində düşünməyi və bu varlıqları tədqiq etməyi bildirmişdir. Bunları tədqiq edən insan bütün canlı və cansız varlıqlarda Allahın üstün yaratma sənətini görər, beləliklə, özünü və bütün kainatı yoxdan yaradan Rəbbimizi lazımınca tanıyar. Kainatı və içindəki bütün varlıqları tədqiq etməyin və Allahın yaratma sənətini görərək bəşəriyyətə açıqlamağın yolu isə elmdir. Tarix boyu Quranda elmə təşviq edən ayələri əsas alan Müsəlman elm adamları həm Allahın əmrini yerinə yetirmək üçün,

həm də müsəlmanların rifahı üçün elmi fəaliyyətlərini şövqlə həyata keçiriblər. Əllərindəki bütün imkanlardan Allah rizası üçün elm sahəsində istifadə ediblər. Belə ki, İslam əxlaqı elmə və biliyə gedən bütün doğru yolları açmış, öyrənmək üçün yaş, məkan və zaman məhdudiyyəti qoymamışdır.

**5. Din əxlaqına uyğun olmayan fəlsəfələrlə ideoloji mübarizə aparmağın yolu bilikdir:**

Din əxlaqına uyğun olmayan ideologiya və fəlsəfələrin bəşəriyyətə verdiyi zərərlərlə, zülm və ədalətsizliklərlə mübarizə aparmağın yolu Quranda bildirilmişdir. İslam əxlaqı zorakılığı, pisliyi deyil, anlayışı, mərhəməti və yaxşılığı tövsiyə edir. **"İnsanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mübarizə apar...** (Nəhl surəsi, 125)" ayəsinin hökmünə əsasən, iman gətirənlər bütün bu batil sistemləri araşdıraraq üzə çıxarmalı və hər cür zərərli düşüncəni elmi və ideoloji səviyyədə məhv etməlidir.

**6. Hər sahədə yaxşı biliyə yiyələnmək Quran əxlaqını təbliğ etməkdə ən təsirli yollardan biridir:**

Quranda bildirilən təhsil anlayışı çox əhatəlidir. Ən əsas təhsil sahələrindən biri də imanlı insanın şəxsiyyətini, rəftar və davranışlarını, danışıq üslubunu və müraciət formasını və bütün xüsusiyyətlərini Quranda bildirilən üstün əxlaqa yaraşan formaya salması və bu məqsədlə çatışmayan cəhətlərini tamamlaması, xətalı cəhətlərini düzəltməsidir. Çünki bu xüsusiyyətlər təbliğ vəzifəsini yerinə yetirərkən ona kömək edəcək. Girdiyi mühitlərdə Quran əxlaqına uyğun yaşamaqdan qaynaqlanan üstün və fəzilətli xüsusiyyətləri ilə dərhal diqqət çəkəcək və hər kəsin qibtə edərək, baxıb nümunə götürəcəyi və hörmət edəcəyi insan modeli olacaq. Bu, başda Peyğəmbərimiz (s.ə.v) olmaqla, bütün peyğəmbərlərin, elçilərin, səhabələrin və İslam alimlərinin ortaq xüsusiyyətidir. Bu sayədə, bir müsəlman təbliği ilə qarşısındakı insanlara ciddi təsir edə bilər.

## İslam tarixindəki təhsil fəaliyyətləri

### Hz. Muhəmməd (s.ə.v) dövrü

Tarixi mənbələrdən və hədislərdən Peyğəmbərimizin (s.ə.v.) elmə çox böyük əhəmiyyət verdiyini anlayırıq.

Hz. Muhəmmədin (s.ə.v) yol göstərməsi ilə Quranın nazil edilməsindən sonra çox dinamik olan ərəb cəmiyyətində



daimi təbliğ mühiti təmin edilərək insanlara Allahın varlığı və din əxlaqı izah edilmiş, bu yolla günbəgün çox sayda insan İslam əxlaqını tanımışdır. Burada ən əsas amillərdən biri Qurandakı elmi məlumatların insanlara çatdırılmasıdır. O dövrdə elmdə çox irəliləyiş olmasa da, Qurandakı biliklərdən nümunələr verilərək insanlar səmimi şəkildə bunlar üzərində düşünməyə dəvət ediliblər. Quranda bildirilən kainat, doğuluş və canlıların yaradılışındakı xüsusiyyətlər kimi nümunələr izah edildikcə bunların insanlar üzərindəki təsiri böyük olmuş və İslam o dövrdə çox geniş kütləyə yayılmışdır.

Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v) təhsilin yayılması üçün əvvəlcə məkanlar seçmiş və ehtiyac olan bölgələrə müəllimlər göndərmişdir. Bədr döyüşündən sonra əsirlərə oxuma-yazma öyrətmə qarşılığında onları azad etmə haqqının verilməsi də bu dövrdəki fəaliyyətlərdəndir. Peyğəmbərimiz (s.ə.v) əvvəlcə "suffa" adlanan yataqxanalı məktəb açmış və burada ancaq elm və ibadət əsas götürülmüşdür.

Bundan əlavə, Peyğəmbərimiz (s.ə.v) hər məhəllədə bir məscid qurdurmuş, "Darül-Kurra" adlanan axşam məktəbi formasında təhsil yerləri açdırmışdır. Bugünkü ibtidai sinifə bənzər həmin dövrdəki "kuttab"larda uşaqların təhsilinə əhəmiyyət verilməklə yanaşı, bəzi müsəlmanlar da könüllü şəkildə evlərini oxuma-yazma öyrədilməsi üçün açmışlar.

## Ərəblərin ümumi vəziyyəti və Quranın nazil edilməsi ilə əldə edilən böyük sıçrayış

Quran nazil edilən dövrə qədər elmə böyük töhfəsi olmayan ərəblər Quranın Peyğəmbərimizə (s.ə.v) vəhy edilməsindən sonra çox böyük nailiyyətlər əldə ediblər. Bu irəliləyiş həm sosial, həm də elmi sahədə özünü göstərmişdir. Belə ki, müsəlman ərəblərdən dünyada elmi istiqamətləndirən bir çox elm adamı yetişmişdir.

Alman Göte Universitetinin Ərəb-İslam Elmi Tarixi İnstitutunun direktoru prof. dr. Fuat Sezginin mövzu ilə bağlı verdiyi məlumatlar müsəlmanların elm sahəsindəki böyük sıçrayışını əks etdirir:

***"İslam dini sadəcə bu elmləri heç bir sivilizasiyada tanımadığım şəkildə inkişaf etdirib və zirvəyə çıxarıb, himayə edib... Din elmə təşviq edirdi, elmi əsla baltalamırdı. Ən böyük alimlərin təbiət elmləri sahəsindəki kitablarını oxuduqda baxırıq ki, "bismillah" ilə başlayır, "əlhamdulillah" ilə bitir. Müasir elm adamı necə çalışırsa, onlar da elə çalışırdılar. Bu şərtlər altında müsəlman dünyasında elm böyük irəliləyiş göstərib".*** (www.kimyaokulu.com)

## Dörd xəlifə dövrü:

Bu dövrdə həyata keçirilən təhsil fəaliyyətlərində o illərdə yetişən gənclərin yaxşı təhsil aldığı məlumdur. Uşaqların təhsili üçün ilk proqram hz. Ömər tərəfindən hazırladılmış və sonrakı xəlifələr bu sistemi təkmilləşdirmişlər. Əsasən, Quran təhsili ilə yanaşı, dil bilgisi, cəbr və ədəbiyyat dərslərinə də yer verilmişdir.

İslam dövlətinin sərhədlərinin genişlənməsi ilə idarəetmədə söz sahibi olacaq yüksək dərəcəli məmur və





şahzadələrin yetişdirilməsi məqsədilə Əməvilər dövründə saray məktəbləri açılmağa başlanmışdır.

## Böyük Səlcuqilər İmperiyası dövrü

İslam dünyasında təhsil və elm sahəsində dönüş nöqtəsi təşkil edən Səlcuqi dövründə ilk dəfə nizamlı dərs proqramları müəyyən edilmiş, zəngin kitabxanalar açılmış və ilk pulsuz təhsil verən Nizamiyyə mədrəsəsi açılmışdır. Bağdadda qurulan bu mədrəsədə dövrün ən böyük alimləri yetişmişdir. Daha sonra ətraf şəhərlərdə buna bənzər təlim-təhsil mərkəzləri qurulmuşdur. Nizamiyyə mədrəsəsindəki dərs proqramları və öyrədilən mövzular daha sonra başda Osmanlı İmperiyası olmaqla, bütün İslam dünyasında əsrlərlə davam etdirilmişdir.

Səlcuqilər dövründə xüsusilə riyaziyyat elmi çox inkişaf etmişdir. Sultan Məlikşah dövründə ədəbiyyatşünaslar daha çox önə çıxmış, bu şəxslər, eyni zamanda, cəbr və həndəsə sahələrində də fəaliyyət göstərmişlər. İslam dünyasının böyük fiqh, kəlam, təfsir və hədisçilərinin çoxu Səlcuqi dövründə yetişmişdir. Müsəlmanlar bu yolla elmə, ədəbiyyata və incəsənətə yol göstərən rəhbər olmuşlar.

## Nəticə

Dövrümüzdə ölkələrin inkişafı ilə əlaqədar olaraq çox vaxt təhsilin əhəmiyyətini vurğulayan tədbirlərə, müzakirə proqramlarına və ya məqalələrə tez-tez rast gəlirik. Təhsilin yayılması üçün təşkil olunan bir çox kampaniyanın adını eşidirik. Bütün bunlar, həqiqətən, təqdirəlayiq fəaliyyətlərdir. Çünki cəmiyyəti ancaq yaxşı təhsil almış, yüksək keyfiyyətli mədəni insanlar irəli apara bilər.

Bu vəziyyət yaşadığımız axırzaman üçün də böyük əhəmiyyət daşıyır. Çünki İslam əxlaqının sürətlə yayıldığı bu dövrdə müsəlmanların da boynuna böyük məsuliyyət düşür və bu məsuliyyət yaxın gələcəkdə qat-qat artacaq. İslam əxlaqının bütün dünyada sürətlə yayılması üçün insanlara Quran ayələrini və iman həqiqətlərini oxuyub anlayan, daha sonra da hikmətli şəkildə izah edən müsəlmanlara ehtiyac var. Bununla yanaşı, cəmiyyətdəki səhvləri və problemləri görüb Quran ayələri işığında həll etmək üçün müsəlmanların hər cəhətdən yüksək mədəniyyətə sahib olması çox vacibdir.

Bundan əlavə, keçmişdə olduğu kimi, görkəmli İslam sivilizasiyası qurmaq məqsədilə hər cür elm, mədəniyyət və incəsənət sahəsində qabaqcıl insanlar yetişdirilməlidir. Heç kim: “Mən nə edə bilərəm ki?” - deyə düşünməməlidir. Unutmaq olmaz ki, insanlara

bütün bildiklərini öyrədən uca Allahdır. Bütün biliklər Allahın sonsuz elminin təcəllisidir. Bir ayədə belə buyurulur:

**Onlar dedilər: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən". (Bəqərə surəsi, 32)**

Bu işdə səmimi niyyətlə Allaha dua etmək çox mühüm başlanğıc olacaq. Bir ayədə möminlərin **"...Rəbbim! Elmimi artır!** (Taha surəsi, 114)" şəklində dua etdiyi bildirilir. Uca Allah hər zaman iman gətirmiş səmimi qullarını dəstəkləmiş və yardım etmişdir. İman gətirmiş insan bu sahədə ciddi cəhd göstərərsə, çox təsirli nəticələr əldə edə bilər. Müsəlmanlar bu sahədə bir-birləri ilə xeyir iş görməkdə yarışmalıdırlar. Allahın iznilə, XXI əsr müsəlmanların və İslamın elmi və mədəni sahədə də möhtəşəm yüksəliş əsri olacaq. Rəbbimiz bir ayədə belə bildirir:

**Allah sənə Quranı və hikməti nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür! (Nisa surəsi, 113)**

## Terrorun həlli: Quran əxlaqının təbliğ edilməsi

Kommunist, faşist, millətçi və digər ideologiyalardan qaynaqlanan terrora qarşı uzunmüddətli sivil həll yolları tapılmalıdır. Bu gün dünyanın bütün ölkələrində materialist və darvinist təfəkkür təhsilin əsasını təşkil edir. Ancaq güclülərin həyatda qalacağını müdafiə edən və mübarizəni müsbət cəhət kimi görən darvinizm əsrlər boyu bütün dünyanı bəladan-bəlaya sürükləyən böyük bataqlıq kimidir. Bu səbəbdən, terrorla mübarizədə qanunla və güc strukturlarının tədbirləri ilə yanaşı, bütün dünyada böyük təhsil səfərbərliyinə də başlanmalıdır. Darvinizm və materializm yalanının əsl üzünü nəzərə çatdırmaq və Allahın insanlar üçün müəyyən etdiyi gözəl əxlaqı hər kəsə öyrətmək bu təhsilin təməlini təşkil etməlidir. İnsanların həsrətini çəkdiyi əmin-amanlıq və sabitlik ancaq din əxlaqının gətirdiyi gözəlliklər insanlar arasında geniş şəkildə yayıldıqda təmin olunacaq. Çünki bataqlığı qurutmadan bu bəladan xilas olmaq mümkün deyil.

## Peyğəmbərimizin (s.ə.v) hədislərində elm

***"Hikmət, əsaslı bilik möminin itirdiyi şeydir. Onu harada tapsa, götürər".*** (İbn-i Mâce, 2-ci cild, səh. 1395, Hadis No: 4169.)

***"Məndən bircə söz də öyrənsəniz, onu başqalarına da öyrədin".*** (Buhâri, İlim, 26)

***"Burada olanlar məndən eşitdiklərini olmayanlara çatdırsın. Ola bilər ki, burada olan bir şəxs eşitdiyini özündən daha ağıllı birisinə çatdırar".*** (Buhâri, İlim, 26)

***"Birinizdən bildiyi şeyi soruşduqda onu dərhal söyləsin".*** (Tirmizi, Tefsir, 1)



# QOXU MÜTƏXƏSSİSİ İTLƏR



## İtlərin həyatını qoxular yönləndirir

Allahın itlərə bəxş etdiyi ən diqqətçəkən xüsusiyyətlərdən biri qoxu hissidir. Bütün itlər həyatları boyu bir-birini boğan, qarışan və dəyişən qoxu izlərini təqib edir və hər şeyi qoxulayırlar. İtlər bir-birinə qarışan yaxşı və pis qoxular arasında insanın diqqətini belə çəkməyən qoxuları bir-birindən ayırd edə bilirlər. Belə ki, küçədə yeriyən insanla yanında gəzdirdiyi itinin hiss etdiyi qoxular eyni deyil. İt, sahibinin fərqinə varmadığı qoxulara əsasən, olduğu mühit haqqında çox dəqiq məlumat toplayır. Digər itlərin qoyduğu qoxuları və ətrafdakı insanların özünəməxsus qoxularını təhlil edərək onlar haqqında məlumat əldə edir. Bu canlı qoxulama qabiliyyəti ilə ətraf mühitlə təmasa girir, məlumat toplayır və havadakı ən kiçik nisbətdəki qoxuları belə asanlıqla müəyyən edir. Çünki

İtlər ən zəif qoxuları belə asanlıqla müəyyən edirlər. İtlərin digər canlı növlərindən və insanlardan üstün olan qoxubilmə qabiliyyətlərinin xüsusiyyətləri nələrdir?

İnsanlarla itlərin burunlarını istifadə məqsədləri çox fərqlidir. İtlər qoxubilmə orqanlarından qida axtarma, ov tutma, öz aralarında xəbərləşmə, istiqaməti müəyyən etmə, qarşı cinslərinin, balalarınn yerini tapmaq üçün istifadə edirlər. Uca Rəbbimiz bu canlıları yaşamaları üçün lazımi sistemlərlə birlikdə yaratdığını bir ayədə belə bildirir:

**Göylərdə və yerdə nə varsa, Onundur. Hamısı Ona boyun əyir! (Rum surəsi, 26)**

## İtlərin qoxu həssaslığı insanlara nisbətən daha çoxdur

Bəzi it növlərinin qoxu həssaslığı insanlara nisbətən milyon dəfə çoxdur. Belə ki, insan burnunda cəmi 5 $sm^2$ olan qoxu bölgəsinin ölçüsü itlərdə 150 $sm^2$-ə çatır.

İtlərin burunlarındakı qoxu hüceyrələrinin sayı insanlardan qat-qat artıqdır. İtin beynindəki qoxulama funksiyasını yerinə yetirən hüceyrələr insanda olandan 40 dəfə artıqdır. Məsələn, teryer it cinsində 147 milyon, alman çoban itində 225 milyon qoxu reseptoru var. Qoxubilmə hissi güclü olan bladxaund cinsi heç bir izin görünmədiyi yerlərdə izi tapır, dörd günlük izi təqib edir və bir insanın izini 80 km-dən də uzaq məsafədən tanıyır.

## İtlərin güclü qoxu almasını asanlaşdıran digər amillər

Rəbbimiz itlərin burunlarını qoxulara qarşı çox həssas yaratmışdır.

İtlərin burunlarının quruluşu qoxu bilmələrini asanlaşdırır:

Allah itlərin burunlarındakı qoxu bölgəsinin toxumalarının qatları və qırışları ilə həm qoxubilməni asanlaşdırmış, həm də bu funksiyanı yerinə yetirən bölgəni genişləndirmişdir. İtlərin burnunda 1sm2-də daha çox qoxu hüceyrəsi yerləşdirilmişdir.

## İtlərin burunlarının nəmli olması qoxubilməni asanlaşdırır:

İtin burnu Allahın yaratdığı xüsusi hüceyrələrin ifraz etdiyi seliklə daima islanır. Qoxu molekulları nəm seliyə gəlir, burada həll olur və qoxu reseptorları ilə təmasa girir.

## İtlərin tənəffüs mexanizmi qoxubilməni artırır:

İtlərdə tənəffüs yolu ağızın arxasında, yemək və nəfəs borusunun başladığı yerdədir. Damağın ətli hissəsi uzanaraq tənəffüs yolunu iki yerə bölür. İtlərin bu tənəffüs yolunun quruluşu "Schlieren görüntüləmə metodu" ilə tədqiq edildikdə fərqli nəfəs alıb-verdikləri məlum olmuşdur. Bir şeyi qoxulayan it nəfəs verərkən burnunu tərpədir, beləcə, hava yan tərəfdəki yarıqlardan arxaya doğru hərəkət edir. Bu xüsusi yaradılış sayəsində itin xaric etdiyi hava qoxunun mənbəyindən fərqli istiqamətə axır. Beləcə, nəfəsdəki hava ilə qoxu qarışmır.

## Burunun içindəki vomeronazal orqan qoxu hissini artırır:

İkinci qoxu duyğusu isə burunun içində yerləşən, hələ haqqında o qədər də məlumat əldə edilməyən, "vomeronazal orqan" adlandırılan kiçik toxuma tərəfindən duyulan feromonlardır.

Bu xüsusi orqan damaq sümüyünün üstündə, burun boşluğunun dabanında ikitərəfli şəkildə yaradılmışdır. Üst kəsici dişlərin arxasında yerləşən bir kanal ilə ağıza birləşir. İt vomeronazal orqana qoxunu ötürmək üçün dilini sürətlə, təkrarlanan hərəkətlərlə üst kəsici dişlərin arxasına toxundurur. Bu şəkildə qoxunu daha aydın alır.

## Tibbdə, təhlükəsizlik xidmətində və təbii fəlakətlərdə itlərin üstün qoxubilmə xüsusiyyətindən faydalanırlar

İtlərin xüsusi təlimlə xərçəngi müəyyən etdikləri məlum olmuşdur. Aparılan tədqiqatlar xüsusi təlim keçmiş itlərin 100 xərçəng xəstəliyindən 71-ni müəyyən etdiyini, ağciyər xərçəngi olmayan 400 nəfərdən 372-ində də xəstəliyin olmadığını bildiklərini göstərmişdir. Belə ki, ağciyər xərçəngi xəstələrinin nəfəslərində müxtəlif kimyəvi maddələr olduğuna görə, xəstəlik ilkin mərhələdə olsa belə, itlər qoxubilmə duyğuları ilə xəstəliyi müəyyən edirlər. İtlərin dəri, sinə və bağırsaq xərçəngini də müəyyən etdikləri məlum olmuşdur.

Partlayıcı maddə axtaran itlər partlayıcı maddələrin qoxusunu başqa qoxulara baxmayaraq, ayırd edə bilirlər. İtin həssas burnu partlayıcı maddələrlə partlayıcı olmayan üzvi qoxuları seçici və həssas xüsusiyyəti sayəsində ayırd edir. Partlayıcını tapmaqda təlimçisi ilə uyğunluq içində fəaliyyət göstərən yaxşı təlim keçmiş it qədər həssas başqa cihaz yoxdur.



# Vicdan sahibi insanlara çağırış

İnsanda onun tez-tez rast gəldiyi hadisələrə qarşı dərhal vərdiş əmələ gəlir. Hətta zaman keçdikcə bu vərdiş elə hala gəlir ki, ilk dəfə gördüyü zaman insanda kəskin reaksiya əmələ gətirən hadisələr bir müddətdən sonra gündəlik mövzulara çevrilir.

Dünyada baş verən müharibələr və toqquşmalar da belə hadisələrdəndir. Bir ölkədə işğalın, kütləvi qırğının, ya da soyqırımın olması əvvəlcə dünyanın dörd tərəfində kəskin reaksiya yaradır. Küçələrdə öldürülən qadınlar, yaşlılar, cavanlar, körpələr...

İnsanlar bu görüntüləri gördükləri ilk günlərdə özlərində əmələ gələn təsiri, nə isə edə bilmək istəyini tez-tez dilə gətirirlər. Amma ardı-arxası kəsilməyən xəbərlər zaman keçdikcə diqqətlərini cəlb etməməyə başlayır. Hər gün bir çox insan ölür, qadınlar təcavüzə uğrayır, uşaqlar gülləyə hədəf olur, minalara düşüb əlini, ya da ayağını itirir... Ancaq insanlarda ilk günlərdə yaranan təsirin yerinə qəribə laqeydlik keçir. Hətta qəzetləri aldıqları zaman müharibə xəbərlərindən çox, yan tərəfdə yazılmış şou məzmunlu xəbərlər diqqətlərini cəlb edir. Çünki Fələstində, Əfqanıstanda, İraqda, Kəşmirdə, yaxud Şərqi Türkistanda hər gün bir neçə insanın ölməsi onlara görə, demək olar ki, "adi xəbər" halına gəlmişdir.

Bundan əlavə, bu zülmləri normal siyasi proses kimi göstərən təbliğat aparılır. Bu səbəbdən, bir çox insan baş verən böyük qətliamları dövlətlərin daxili problemi kimi qiymətləndirirlər.



Bir çox digər səbəblərlə yanaşı, tarixi və iqtisadi səbəblərin də toqquşmaların meydana gəlməsində təsirli olduğu doğrudur. Amma son dövrlərdə çeçen xalqının bəzi ruslardan gördüyü təzyiqin, Orta şərqdə baş verən toqquşmaların, Afrikadakı müsəlman xalqların məruz qaldığı zorakılığın, Balkanlardakı müsəlmanların bütün dünyanın gözü qarşısında şiddətli təzyiq altında əzilməsi və tətbiq edilən etnik təmizləmənin tək səbəbi iqtisadiyyat, ya da daxili problemlər deyildir. Bu insanların müsəlman olmaları baş verən toqquşmaların əsas səbəblərindən biridir.

Bu insanlar Allaha iman gətirdikləri, həyatlarını inancları əsasında qurmaq və uşaqlarını da inanclı böyütmək istədikləri üçün cürbəcür təzyiqlərə məruz qalırlar. Güclü İslam dövləti, ya da İslam ölkələrindən ibarət güclü birlik isə bir çox qərbli ölkədə narahatlıq yaradır, bir çoxunun da mənfəətlərini təhlükə altına alır. Halbuki, Quran əxlaqına tam riayət edən bir ölkə, ya da birlik sadəcə müsəlmanları deyil, dini və inancı nə olursa olsun, bütün insanları mühafizə altına alır. Bu cür birliyin mövcudluğu heç kəs üçün təhlükə ünsürü deyil, əksinə, bütün dünya ölkələri və xalqları üçün əmin-amanlıq və sülhün təminatıdır.

Məsələnin bir başqa tərəfi isə, bəzi insanların bu ölkələrdə baş verənlər haqqında heç bir məlumata malik olmamaları, hətta bir çox dövlətlərin adlarını belə bilməmələridir. Sudanda, Əlcəzairdə, İndoneziyada, Pattanidə, Myanmada, Cibutidə, Tunisdə, Banqladeşdə yaşayan müsəlmanların qarşı-qarşıya qaldıqları çətinliklər, təzyiqlər, hər gün yenisi həyata keçirilən zorakılıq hərəkatları, aclıq və yoxsulluğun fərqinə belə varmayan bir insanın vəziyyəti isə daha da düşündürücüdür. Çünki bu insanın iman sahibi kəslərə yaşadıqlarından xəbəri olmadığı halda, yardım əlini uzatması, əlbəttə ki, mümkün olmayacaqdır. Digər bir qrup isə, edilən zülm və haqsızlıqların fərqindədir. Ancaq bu insanlara kömək edə biləcəyini, zülmün qarşısını almaq üçün səy göstərə biləcəyini düşünmək belə istəmir. Üstəlik, heç bir şey edə bilməyəcəyinə özünü elə inandırıb ki, nə oxuduğu xəbərlər, nə də gördüyü görüntülər vicdanında kiçik təsir belə yaratmır.

Halbuki, iman edən bir insan hər eşitdiyindən və hər gördüyündən məsuldur. Allah Quranda müsəlmanlara bu cür səslənir:

**"Sizə nə olub ki, Allah yolunda və- "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxar, bizə (Öz) qatından bir himayəçi göndər, bizə (Öz) qatından bir yardımçı yolla!" – deyən kişilər, qadınlar və uşaqlardan aciz qalmışlar uğrunda mübarizə etmirsiniz?" (Nisa surəsi, 75)**

Allahın ayədəki əmrinə əməl edən imanlı və vicdanlı insanların baş verənlərə göz yummaları, özlərini görməməzliyə qoymaları mümkün deyildir. Bir müsəlmanın dünyada bu cür böyük zülm davam edərkən yatağında laqeyd şəkildə rahat yatması, boş işlərlə başını qatması, yalnız öz əyləncəsi və mənfəətlərini düşünməsi mümkün deyildir. Çünki iman edən bir insan müharibələrin, qətliamların, zülmün, aclığın, əxlaqi degenerasiyanın, qısacası, dünya üzərindəki bütün problemlərin əsas həll yolunun Quran əxlaqının insanlar arasında yayılması olduğunu bilir. Bunu bilmək onun üzərinə çox böyük məsuliyyət yükləyir; dünyaya İslamı və dinin gətirdiyi gözəllikləri anlatmaq, Quran əxlaqını yaymaq və dinsizliyə qarşı fikri mübarizə aparmaq...

Bu mövzudan bəhs edərkən məqsədimiz, dünyanın dörd tərəfindəki məzlum müsəlmanların vəziyyətlərini tam aydınlığı ilə üzə çıxarmaq və vicdanlı insanları bu həqiqət üzərində düşünüb həll yollarını axtarmağa dəvət etməkdir. İçində yaşadığımız dövr qəflətə düşmək, səssiz oturmaq, maraqlanmamaq, qısa dünya həyatının faydalarının ardınca getmək, mübahisə və qalmaqallarla vaxt öldürmək üçün münasib dövr deyil. Milyonlarla müsəlmanın böyük zülm altında olarkən İslam üçün səy göstərməmək çox böyük vicdansızlıq olar. Şübhəsiz ki, bu, insanı axirətdə böyük günaha düçar edər.



# Tənəffüs etdiyimiz hava hər səhər necə təmizlənir?

Gün boyu avtomobillərdən çıxan qazlar, evlərin bacalarından çıxan tüstülər, küləklə uçuşan tozlar, fabriklərdən yayılan kimyəvi qazlar... kimi xarici amillər tənəffüs etdiyimiz havanı daim çirkləndirir. Lakin biz heç vaxt havasızlıqdan əziyyət çəkmirik. Tənəffüs etdiyimiz hava həmişə təmizdir. Bəs bütün gün müxtəlif səbəbdən çirklənən hava necə təmizlənir? Elm adamlarının uzun illər davam edən işlərinə baxmayaraq, qaynağını açıqlaya bilmədikləri təmizləyicilər nələrdir?

Tənəffüs etdiyimiz hava 77% azot, 2% oksigen və 1% karbondioksid və arqon kimi qazların qarışığından ibarətdir. Ancaq çox həssas tarazlıqlar üzərində qurulmuş Yer atmosferi hidrokarbonlar adlanan kimyəvi birləşmələr tərəfindən çirklənir. Bunlar ağac və qalıq yanacaqlar kimi maddələrin yanması ilə ortaya çıxır. Ancaq havada yaranan bu çirkləndiricilər uca Allahın yaratdığı xüsusi üsullarla təmizlənir.

## Atmosferdəki su damlacıqlarının havanı təmizləməsi

Atmosferə yayılan kükürd dioksid və azot dioksid qazları müxtəlif kimyəvi çevrilmələrdən keçdikdən sonra buludlardakı su damlaları tərəfindən əmilir. Sonra bu damlalar yerə yağış, qar kimi yollarla düşərək yenidən torpağa qarışırlar. Ancaq bu əməliyyat əsnasında havanı da təmizləyirlər. Yağış yağdıqdan sonra havanın tərtəmiz və təptəzə ətrinin olmasının səbəbi də budur: yağış damcılarının havadakı bütün tozları tutması və torpağa endirməsi....

## Günəş enerjisinin havanı təmizləməsi

Bəzi təbii kimyəvi birləşmələr günəş işığı ilə reaksiyaya girərək bəzi maddələr istehsal edirlər. Bu maddələr havanı sisdən və çirklədicilərdən təmizləyir. Günəşdən enerji alan bu kimyəvi maddələr sis və digər çirklədiciləri

parçalayıb onları zərərsiz molekullar halına gətirərək havanı təmizləyir. Burada maraqlı olan cəhət ondan ibarətdir ki, günəş şüaları yalnız canlıların nəfəs almasını çətinləşdirən zərərli maddələri molekullara ayıraraq parçalayır, faydalı kimyəvi birləşmələrə isə heç bir zərər vermir. Şübhəsiz, bu vəziyyət üstün ağıl sahibi uca Allahın insanlara bəxş etdiyi nemətlərdən yalnız biridir.

**O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

## Hidroksil ionunun (OH) havanı təmizləməsi

OH radikalları atmosferdə təbii yollarla yaranan kimyəvi birləşmələrin günəş işığını alıb yayması ilə meydana gəlirlər.

Atmosferin yuyucuları adlandırılan OH ionları, hidrokarbon radikalları kimyəvi olaraq zərərsizləşdirərək hava çirkini parçalayır və zəhərli atmosfer qazlarının meydana gəlməsinin qarşısını alırlar.

Elm adamları daim islehsal edilən və təxminən bir saniyə yaşayan OH radikallarını hansı qaynaqların istehsal etdiyini hələ də tapa bilməmişlər.

Biz atmosferimizi təmizləyən radikalların necə istehsal edildiyini hələ bilməzkən uca Allahın qurduğu mükəmməl nizam bu radikalları istehsal edir və havanın təmizlənməsini təmin edir. Uca Allah yaratma sənətini bir ayədə belə xəbər vermişdir:

**Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)**

## Bitkilərin fotosintez əməliyyatında havanı təmizləməsi

Həyatın əsası olan bütün biokimyəvi proseslər üçün enerji lazımdır. Bu enerjinin qaynağı hüceyrələrdə yığılmış qidaların yanması, yəni oksigenlə birləşərək parçalanmasıdır. Bu parçalanma əsnasında qida molekulları arasındakı kimyəvi enerji sərbəst qalaraq ortaya çıxır. Bitkilər məhz torpaqdan aldıqları suyu havadan aldıqları karbondioksidlə birləşdirərək şəkər və nişastaya bənzər karbohidratlara və oksigenə çevirir. Fotosintez adlanan bu prosesdə yaranan yüksək enerjili qidalar toxumalarda yığılarkən oksigen çölə atılır. Nəfəs almağımız üçün vacib şərt olan oksigen fotosintez hadisəsi ilə işığın olduğu gündüz vaxtında bitkilər tərəfindən xaricə verilməyə başlayır və tənəffüs etdiyimiz havanı təmizləyir. Səhərlər tənəffüs etdiyimiz havanın çox təmiz olması uca Allahın qurduğu bu mükəmməl sistem sayəsində mümkün olur. Uca Allah nəfəs alma və səhər vaxtı arasındakı əlaqənin möcüzəvi xüsusiyyətini bir Quran ayəsində belə bildirmişdir:

**Və nəfəs alan sabaha... (Təkvir surəsi, 18)**

## Nəfəs almağın böyük möcüzə olduğunu heç düşündünüzmü?

Hər canlı doğulduğu andan ölənə qədər dayanmadan nəfəs alır. Ancaq nəfəs almaq yalnız havanı içinə çəkmək və sonra nəfəs verərək çölə buraxmaqdan ibarət deyil. Bu səbəbdən, insan yaşamasına səbəb olan havanın necə tükənmədiyini, çirklənmədiyini və daim təzələnildiyini düşünməlidir. Çünki heç bir canlının nəfəs almaq üçün kiçik bir səy göstərməsinə belə ehtiyac yoxdur. İnsanın həm ətrafındakı, həm də bədənindəki bütün şərtlər rahat nəfəs ala biləcəyi şəkildə yaradılmışdır.





Tənəffüs edilən hava Allahın yaratdığı mükəmməl nizam sayəsində qorunur. Əgər bu nizamda kiçik bir dəyişiklik olsa, bu, bütün canlılığın yox olmasına gətirib çıxara bilər. Çünki atmosfer həyat üçün lazım olan xüsusi şərtlər daxilində yaradılmışdır.

Tənəffüs etdiyimiz havanı təmizləyən xüsusi sistemlər də atmosferdəki qüsursuz nizamın bir hissəsidir. Əgər bu sistemlər olmasaydı, canlılar nəfəs almalarına baxmayaraq, zəhərlənib ölərdilər.

Ancaq günəş şüaları, yağış suları, OH ionu və bitkilərin fotosintezi kimi qüsursuz sistemlər Yer atmosferini canlılar üçün xüsusi olaraq təmizləyir.

Şübhəsiz, təkcə bu xüsusiyyət belə dünyanın və bütün kainatın təsadüfən ortaya çıxmış başıboş bir məkan olmadığını isbat edir. Kainat, yaşadığımız dünya, dünyada canlılığı təmin edən bütün sistemlər, bitkilər, heyvanlar və insanlar hər xüsusiyyəti ilə üstün güc sahibi olan uca Allah tərəfindən yaradılmışdır.

**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, bütün heyvanatı yaymasında, küləklərin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)**

Hava insanın yaşaması üçün böyük əhəmiyyət daşıyır. Bütün canlılar kimi insanın da gündə təxminən 14 kq havaya ehtiyacı var.

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

## Quranda bildirilən yağış suları

**Uca Allah bir çox Quran ayəsində yağışın dirildici xüsusiyyətinə işarə edir. Şübhəsiz, yağış sularının yer üzünün ehtiyacı olan suyun təmin edilməsində həyati əhəmiyyəti və dirildici xüsusiyyəti var. Ancaq yağış suları havanın təmizlənməsində də böyük rol oynayır, bu baxımdan da dirildici təsir meydana gətirirlər. Ayələrdə bu dirildici təsirə işarə edilə bilər (ən doğrusunu Allah bilir).**

**Halbuki, o (yağış) onların üzərinə yağdırılmazdan əvvəl ümidsiz idilər. Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə qadirdir. (Rum surəsi, 49-50)**

# Bir ayə, Bir açıqlama

**"Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?! (Maidə surəsi, 50)**

Ayədə yeganə hökm sahibinin Allah olduğu xəbər verilir. İman gətirənlər üçün yeganə yol göstərici Allahın elçiləri və Allahın sözü olan Qurandır. Quranda inananların: **"Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa tanrımı axtaracağam?** (Ənam surəsi, 164)" - dedikləri bildirilir.

İman gətirənlər həmişə Allahın əmrlərinə görə hərəkət edir, Quranda qadağan edilən hər cür düşüncə və rəftardan çəkinirlər. Hər hansı bir işi görərkən və ya bir qərar verərkən o mövzu haqqında Allahın nə əmr etdiyini düşünür, dərhal Quran ayələrinə və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə müraciət edirlər. Öz həvəs və istəklərinə, yaşadıqları cəmiyyətin batil ənənələrinə, ya da atalarının adətlərinə görə deyil, yalnız Allahın əmrlərinə əsasən hərəkət edirlər.

Allahı yeganə hökm sahibi kimi qəbul etməyən, Allahın hökmlərinə qarşı çıxan və ya Onun əmrlərinin xaricində hökmlər qoyan insanlar doğru yoldan sapmış olurlar (Allahı tənzih edirik). Bu insanlar cəmiyyətdə geniş şəkildə qəbul edilən batil qaydaları (Allahı tənzih edirik) Allahın hökmlərindən üstün hesab edirlər. Hətta vicdanları qəbul etsə də, qürurlarından və fanatik düşüncələrindən ötrü gözəl və doğru olan hökmü qəbul etmirlər. Bəzi insanların bu səhv dünyagörüşləri Allahın dinini qəbul etmələrinə və iman gətirmələrinə daim mane olmuşdur. Halbuki, Quran əxlaqına uyğun olmayan hər düşüncə və hər davranış səhvdir. Quranda insanların axirətdə Allahın hökmlərindən sorğu-sual ediləcəkləri bildirilir.

İman gətirən bir insan üçün bütün insanların hansı inanca sahib olması, ya da dinlərini necə tətbiq etməsi qətiyyən əhəmiyyətli deyil. Əhəmiyyətli olan Allahın Quranda insanlara bildirdikləri və Peyğəmbərimizin (s.ə.v) tətbiqləridir. Quran endirildiyi dövrdə Allah insanların bir çoxunun batil inanc və tətbiqlərini ortadan qaldırmışdır. İnsanların o dövrdə söylədikləri sözlər, atdıqları böhtanlar və düşmən rəftarları Peyğəmbərimizin (s.ə.v) din əxlaqını yaşamasına mane olmamışdır. Hal-hazırda da iman gətirənlər Allaha, Quran əxlaqına və Peyğəmbərimizin(s.ə.v)sünnəsinə möhkəm bağlanmalı, Allahın Quranda bildirdiklərinin xaricində özlərinə yol axtarmamalıdırlar.

# BU ƏSRDƏ İSLAM ƏXLAQININ BÜTÜN DÜNYAYA HAKİM OLMASI ZÜLMƏ DƏ SON QOYACAQ

Allah Quranda bir çox ayədə İslam əxlaqının bütün dünyaya hakim olacağını vəd etmişdir. Uca Rəbbimizin vədi haqdır və Allah vədindən əsla dönməz. Allaha iman gətirənlər Allahın vədini mütləq yerinə yetirəcəyinə də iman gətirirlər. Uca Allah İslam əxlaqının yer üzünə hakimiyyətini müjdələyib vəd verdiyinə görə, səmimi iman gətirənlər də bu vədin yerinə yetməsi üçün könüldən dua edib istəməli və var güclərilə cəhd göstərməlidirlər. İslam əxlaqının hakim olacağına inanmaq və bu müqəddəs hadisənin baş verməsi üçün çalışmaq Qurana tabe olan hər müsəlman üçün fərzdir.
Rəbbimiz bir ayəsində belə bildirir:

Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir! (Nur surəsi, 55)

Allahın İslam əxlaqının dünya hakimiyyətini müjdələdiyi digər bəzi ayələr isə bunlardır:

**Allah yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)**

**Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, Öz nurunu tamamlayacaqdır. Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərdən üstün etmək üçün Öz Elçilərini hidayət və haqq dinlə göndərən Odur! (Səf surəsi, 8-9)**

**Günahkarlar istəməsələr də, Allah sözləri ilə haqqı gerçəkləşdirəcək! (Yunus surəsi, 82)**

**Sizdən əvvəl neçə-neçə nəsilləri peyğəmbərləri özlərinə açıq-aşkar möcüzələr gətirdikləri halda, zülm etdikləri və iman gətirəsi olmadıqları üçün məhv etdik. Biz günahkarları belə cəzalandırırıq. Onların ardınca yer üzünün varisləri sizi təyin etdik ki, görək necə davranacaqsınız. (Yunus surəsi, 13-14)**

Allaha heç nəyi şərik qoşmadan, səmimi iman gətirənlərin yer üzünün varisləri olacaqları da Quranın bir çox ayəsində müjdələnən İlahi qanundur:

**Biz Zikrdən sonra Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq. (Ənbiya surəsi, 105)**

**Onlardan sonra da yurdlarında sizi yerləşdirəcəyik. Bu, məqamımdan və əzabımdan qorxanlara aiddir! (Elçilər) fəth istədilər. Hər bir inadkar dikbaş da ziyana uğradı. (İbrahim surəsi, 14-15)**

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

### Qızıl Əsrdə tayı-bərabəri görünməmiş bolluq olacaq

Qızıl Əsr sülh və əmin-amanlıqla yanaşı, məhsul və mal bolluğunun, bərəkətin olduğu dövr olacaq. Bu dövrdə ehtiyacı olana istədiyindən qat-qat artığı veriləcək, ən kiçik sıxıntı, yoxsulluq, aclıq olmayacaq. İman gətirən, Allah yolunda xidmət edən insanların bunun üçün etdiyi hər cür yaxşılığın qarşılığı həm dünyada, həm də axirətdə tam ödənəcək. Bolluq və bərəkət İslam əxlaqına uyğun yaşayan möminlərə Allahın verdiyi mükafat olacaq. Gördükləri hər iş onlara böyük zənginlik kimi geri qayıdacaq. Allah bir ayədə müsəlmanların Öz rizası üçün mallarından Allah yolunda xərclədikdə əvəzində qazanacaqları bərəkəti belə bildirir:

**Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir. (Bəqərə surəsi, 261)**

Bu dövrdə o vaxta qədər tayı-bərabəri görülməmiş məhsul və mal bolluğu olacağı, bu məhsulların sayılıb-ölçülmədən hər istəyənə paylanacağı bir çox hədisdə də bildirilir:

Mənim ümmətim o dövrdə elə firavanlıq görəcək ki, o günə qədər onun misli görünməmişdir. Torpaq məhsul verəcək və insanlardan heç nə gizlətməyəcək. Mal da o gün çox olacaq.

... Göy üzü yağışından heç nə əsirgəməyəcək və comərdliklə bol yağdıracaq. Yer üzü və bitkilərindən heç biri əksik olmayacaq və mütləq onlar tamam-kamalla bitib ortaya çıxacaq. Hətta yaşayanlar (özlərində olan nemətləri görmələri üçün) ölülərin də həyatda olmasını arzu edəcəklər.

... Yer içində gizlətdiyi bütün zənginliklərini qızıl və gümüş sütunlar şəklində çölə çıxaracaq.

Quran əxlaqının hakim olduğu dövrdə cəmiyyətin hər zümrəsində həqiqi mənada ədalət, sülh və əmin-amanlıq mühiti olacaq. Bu ədalət mühitinin nəticəsi olaraq insanlar heç bir saxtakarlığa, pisliyə, haram əməllərə yanaşmayacaq. Çox böyük rahatlıq və təhlükəsizlik olacaq. Axırzamandakı ədalət mühiti hədislərdə belə tərif edilir:

... Yer üzü zülm və işgəncə ilə dolduğu kimi onu doğruluq və ədalətlə dolduracaq.

Ədalət o qədər bol olacaq ki, zorla alınan hər mal sahibinə qaytarılacağı kimi, bir insanın başqasına aid olub dişində qalmış bir şey də sahibinə qaytarılacaq... Yer üzünü əmin-amanlıq bürüyəcək və hətta bir neçə qadın yanlarında kişi olmadan rahatlıqla həccə gedəcək.



# Doğru yola yönəlmənin sirləri

Kimlərin doğru yolda olduqları Allahın Quranda bildirdiyi sirlərdəndir. İslamda nəzərdə tutulan gözəl əxlaqa əməl edərək Allahın yoluna gələnlər cənnətlə mükafatlanan qullardır.

Hər bir insanın özünə görə doğruları və səhvləri olur. Hər bir doğrunun təsbit edilmə qaynağı isə fərqlidir. Bəziləri oxuduğu kitabı, bəzisi ətrafında gördüyü insanı, bəzisi hər hansı bir siyasətçini, bəziləri də hər hansı bir filosofu özünə rəhbər edir. Halbuki, Allahın insanlar üçün təyin etdiyi ən doğru və insanı qurtuluşa aparacaq yeganə yol İslamın gətirdiyi gözəl əxlaqdır.

Möminlər Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq üçün səy göstərirlər. Quranda bildirilən gözəl əxlaqa tabe olmamaq isə insanları dünya və axirətdə sonsuza qədər davam edəcək ümidsizliyə, bədbəxtliyə və əzaba aparır.

## Doğru məlumatlarla iman etmək

Allahın razılığını, rəhmətini və cənnətini arzulayan insanlardan olmaq Allaha və Quranda vədd etdiklərinə iman etməklə mümkündür. Belə bir insan göylərin, yerin və ikisi arasındakıların tək sahibi və yaradıcısının Allah olduğunu və dünyada var olma məqsədinin Allaha qulluq etmək olduğunu bilir. Əgər bu insan həyatı boyunca Allahın razılığını axtarıb Ona iman edərsə, Allah onu doğru yola yönəldər. Əlbəttə ki, burada nəzərdə tutulan imandır.

Bəzi insanlar hər nə qədər iman etdiklərini söyləsələr də, imanlarında şübhə və ya zəiflik olur. Belə insanlar inkarçılarla birlikdə olduqlarında onların təsirinə düşüb asanlıqla zəiflik göstərə bilir, hətta bəzən Allaha və Allahın dininə qarşı ola bilirlər. Halbuki, Allah Quranda doğru



yola yönəltdiyi qullarının imanının qəti və şübhəsiz olduğunu insanlara bildirmişdir:

**Və elm verilən kəslər də bilsinlər ki, haqq (Quran) sənin Rəbbindəndir. Artıq ona inansınlar və ürəkləri ondan arxayın olsun. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər! (Həcc surəsi, 54)**

## Tam təslim olmaqla Allaha yönəlmək

İman edənlərin tam təslim olaraq Allaha yönəlmələri, Allaha ürəkdən bağlanmaları da doğru yola yönəlmənin sirridir. Allaha iman edən və axirətdən qorxan möminin dünyaya aid hər hansı bir həvəsi yoxdur. Möminin məqsədi Allahı razı etməkdir. Bu səbəbdən, hər davranışında Allaha yönələr, Allahın onu hər an sınadığını bilərək hər hadisədə Allahın onun üçün müəyyən etdiyi qədərə razı olar. Aləmlərin Rəbbi olan uca Allah Özünə təslim olanları doğru yola çatdıracağını bu şəkildə bildirmişdir:

**Sizə Allahın hökmləri oxunduğu və Onun Peyğəmbəri aranızda olduğu halda, siz necə kafir ola bilərsiniz? Allaha sığınan şəxs, şübhəsiz ki, doğru yola yönəldilmişdir. (Ali-İmran surəsi, 101)**

## Verilən öyüdləri yerinə yetirmək

Allahın doğru yola yönəltmək istədiyi qullarına bir başqa əmri isə bu şəkildədir:

**Əgər onlar verilən nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və daha düzgün olardı. O zaman Biz də onlara Öz tərəfimizdən böyük mükafat verərdik və onları düz yola yönəldərdik. (Nisa surəsi, 66-68)**

Allahdan qorxan möminlər həmişə səhvlərini təkrarlamamaq və Allahın ən çox razı olacağı əxlaqa çatmaq üçün çalışırlar. İnsanlar səhvlərini təkrarlamamaq və doğru yola çatmaq üçün təvazökar olmalıdırlar. Təvazökar olmaq və səhvlərini düzəltmək istəyən insan Allahın əmrlərini tam olaraq yerinə yetirər. Bundan əlavə, saleh möminlər bir-birlərinə yaxşılığı əmr edər, pislikdən çəkindirərlər. Bu səbəbdən, mömin hər hansı bir səhvinin mömin qardaşı tərəfindən ona deyilməsindən məmnun olmalı, bunun öz axirəti üçün böyük nemət olduğunu bilməlidir. Allah şeytana tabe olmayan, özünü Qurana və gözəl əxlaqa çağıran şəxslərə tabe olan qullarına belə müjdə verir:

**Tağuta (şeytana, bütlərə) ibadət etməkdən çəkinib tövbə edərək Allaha tərəf qayıdanları müjdə gözləyir. Elə isə qullarıma müjdə ver. O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır! ( Zümər surəsi, 17-18)**

# Sahib olduğunuz hər şeyi
# Allahın nemət olaraq verdiyini əsla anlamazlıqdan gəlməyin

Yaşadığımız dünyada saysız gözəlliklər, nemətlər mövcuddur. Hər canlının bütün ehtiyacları ayrı-ayrı düşünülmüş və heç nə əskik buraxılmamışdır.

Əvvəlcə özümüzü düşünək: səhər yataqdan qalxdığımız andan etibarən nə edirik, nəyə ehtiyac duyur, nələrlə qarşılaşırıq, daha doğrusu hansı gözəlliklərlə nemətləndirilirik.

Yuxudan duran kimi nəfəs ala bilirik, qüsursuz tənəffüs sistemimiz sayəsində bunu edərkən heç bir çətinlik çəkmirik, atmosferdəki qazların nisbətinin doğru olub-olmadığını düşünmək ağlımıza belə gəlmir. Gözümüzü açan kimi görə bilirik, gözümüzdəki bənzərsiz yaradılış sayəsində dəqiqlik nizamı, rəng nizamı, uzaqlıq nizamı kimi nizamlar etmək məcburiyyətində qalmırıq. Yemək yeyirik və ləzzət alırıq.



Yediyimiz hər loğmada ayrı-ayrı olan vitaminlərin, mineralların, karbohidratların, zülalların hara gedəcəyini, nisbətini, yığılması və ya atılması kimi əməliyyatları ağlımıza belə gətirmirik. Hətta orqanizmimizdə hansı əməliyyatların getdiyindən xəbərimiz belə olmur. Əlimizə götürdüyümüz bir cismin bərk və ya yumşaq olduğunu dərhal anlaya bilirik. Hər hansı bir cismi rahatlıqla tuta bilirik.

Beləliklə, hər saniyə insan bədənində bu nümunələrə bənzər saysız əməliyyatlar gedir. Bu əməliyyatların hər birini icra edən orqanlar, bu orqanlarda da kompleks mexanizmlər mövcuddur. İnsan bədəni sanki bir fabrik kimi işləyir. Bu fabrik insana verilmiş ən böyük nemətlərdən biridir, çünki insan bu fabrik sayəsində mövcuddur, bu fabrik sayəsində yaşayır.

Bəs bu fabrikin işləməsi üçün lazım olan xammallar necə təmin edilir? Yəni insana güc verən yeməklər, su, hava kimi maddələr necə meydana gəlir?

Əvvəl meyvə və tərəvəzləri düşünək. Quru torpağa atılan və bir taxta parçasına bənzəyən toxumlar sayəsində yaranan qarpızları, qovunları, ərikləri, albalıları, portağalları, bibərləri, pomidorları, ananasları, tut, çiyələk və badımcanları və digər bitki mənşəli qidalarımızı düşünək. Alışdığımız düşüncə forması ilə deyil, fərqli yanaşma tərzi ilə düşünək. Çiyələyin o möhtəşəm ətrini və dadını, qovunun heç dəyişməyən məşhur ətrini və ləzzətini ağlımıza gətirək. Bir də insanların laboratoriyalarda həmin

ətirləri əldə etmək üçün sərf etdikləri zamanı, istifadə etdikləri texnologiyanı düşünək və müqayisə edək. Laboratoriyalarda əldə edilən nəticə təbiətdəkinin pis təqlidindən başqa bir şey deyil. Allahın insanlar üçün təbiətdə yaratdığı ətir, ləzzət və rəng müxtəlifliyi bənzərsiz qüsursuzluğa malikdir.

Bütün bitki mənşəli qidaların dadlarının, qoxularının fərqli olması, hamısının özlərinə xas rənglərinin olması insan üçün xüsusi olaraq hazırlanmışdır. Bunların hamısı Rəbbimiz tərəfindən nemət kimi təqdim edilir.

Heyvanlar da insanlar üçün xüsusi olaraq yaradılmışdır. İnsanlar həm qida kimi faydalanacağı, həm də görünüşlərindən zövq alacağı gözəlliklərlə təchiz edilmişlər. Dəniz və okeanlardakı rəngarəng balıqlar, mərcanlar, dəniz ulduzları, dünyanın müxtəlif bölgələrində yaşayan rəngarəng quş növləri, çox sevimli pişiklər, itlər, delfinlər, pinqvinlər və digərləri… Bunların hamısı Allahdan bir nemətdir. Allah bu mövzunu bir çox ayəsi ilə qullarına bildirmişdir:

**Göylərdə və yerdə olanların hamısını O sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Casiyə surəsi, 13)**

**Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nəhl surəsi, 18)**

Burada bəhs edilənlər Allahın təqdim etdiyi nemətlərin və gözəlliklərin çox kiçik bir hissəsidir. İnsan gözünü hara çevirsə, Allahın Bərr (qullarına qarşı yaxşılığı çox olan), Kərim (kərəmi bol, comərd), Lətif (lütf sahibi), Rəzzaq (ruzi verən), Sani (sonsuz gözəlliklər yaradan) kimi isimlərinin təcəllilərinin nümunələrini görə bilər.

Siz də ətrafınıza bir nəzər salıb düşünün. **"Sizə verilən nemətlərin hamısı Allahdandır… (Nəhl surəsi, 53)"** ayəsi ilə xəbər verildiyi kimi, sizə verilən sonsuz nemətlərin sahibinin Rəbbimiz olduğunu əsla ANLAMAZLIQDAN GƏLMƏYİN.



# İMAM QƏZALİ

## (1058-1111)



***İmam Qəzali XI əsrin sonu - XII əsrin əvvəllərində yaşamışdır və dövrünün mücəddidi qəbul edilən böyük İslam alimlərindən biridir. Yaşadığı dövrdə üstün əxlaqı ilə diqqət çəkmiş, bir çox sahədə elm sahibi olması və güclü mühakimə qabiliyyəti ilə təkcə İslam aləmində deyil, Qərbdə də tanınmışdır. "Allahın verdiyi neməti Onun sevdiyi yerdə xərcləmək şükür, sevmədiyi yerdə istifadə etmək isə küfrani-nemətdir (neməti inkar etməkdir)".***

İmam Qəzali həyatını Quran əxlaqında dərinləşməyə və İslam əxlaqının gözəlliklərini insanlara izah etməyə həsr etmiş böyük İslam alimidir. Bu səbəbdən, elmi və dini mövzularda dərin bilik sahibi olmağa cəhd etmişdir. Xüsusilə qədim yunan fəlsəfəsindən qaynaqlanan Qurana zidd inanc və fikirləri təsirli üslubla təkzib etmiş və bütün bunlara qarşı Quran əxlaqını daima ön plana çıxarmışdır. Dərin elminə görə, "İslamın dəlili, İslamın haqq olduğunun sübutu" mənalarını verən "Hüccətül-İslam" və "Zeynüd-din" adları ilə tanınmışdır.

Gənc yaşlarında dövrünün Səlcuq vəziri olan böyük dövlət adamı Nizamülmülkün dəvəti ilə Bağdada getmiş, onun topladığı elm məclisindəki alimlər onun elminin dərinliyinə və məsələləri üstün izah etmə qabiliyyətinə heyran qalmışdılar. Belə ki, o dövrlərdə böyük Səlcuq dövlətində meydana gələn batil cərəyanların tərəfdarları Allahın ona nəsib etdiyi parlaq zəkası, yüksək elmi və üstün müraciət qabiliyyəti qarşısında heç nə edə bilmirdilər.

İmam Qəzalinin İslam əxlaqını yaymaq üçün göstərdiyi xidmətləri görən Nizamülmülk onu Nizamiyyə mədrəsəsinə dövrümüzdə "rektorluq" adlanan vəzifəyə təyin etmişdir. Bu vəzifəsi ərzində İmam Qəzali saysız-hesabsız tələbə yetişdirmiş və üç yüzə yaxın seçilmiş tələbəsinə bütün lazımi elmləri öyrətmişdir. Tələbələri arasında Muhəmməd ibn Əsəd ət-Tusi, Əbu Mənsur Muhəmməd, Əbu Abdullah Cümərt əl-Hüseyni, Əbul-Həsən əl-Bələnsi kimi bir çox İslam alimi var.

Bir tərəfdən dərs verərkən, digər



tərəfdən bir çox dəyərli kitab yazan İmam Qəzalinin yiyələndiyi üstün elmlər dövrünün avropalı filosoflarını hər cəhətdən geridə qoyurdu. Avropada Yerin müstəvi formasında olduğu zənn edilərkən İmam Qəzali Yerin kürə formasında olduğunu, qaraciyərdə qanın zəhər və mikroblardan təmizlənib təzələndiyini, öd və limfa sistemi ilə zərərli maddələrin burada qandan ayrıldığını və bütün bu proseslərdə dalaq, böyrək və öd kisəsinin rollarını, qandakı maddələrin miqdarının dəyişməsi ilə orqanizmin zərər görməsi kimi ətraflı məlumatları bugünkü fiziologiya kitablarındakı kimi dəlillərlə açıqlayırdı. Bunlar kimi, bir çox elmi mövzu haqqında kitablarında məlumatlar var idi.

## Dəyərli əsərləri

İmam Qəzali həyatı boyu bir çox kitab yazmışdır. "Mövduatül-ülum" adlı kitabında təqribən 1000 əsəri toplanmışdır. Əsərlərində İslam dini və əxlaqının hər sahəsi ilə bağlı məlumatlar olduğu kimi, hər yaş və səviyyədən olan insanın asanlıqla anladığı üslub hakimdir. İmam Qəzalinin əsərləri ilə bağlı avropalılar uzunmüddətli dərin təhlillər aparmışlar. Bunlardan P. Buyqes "Essaie de Chronologie des Oeuvres de al-Ghazali" adlı əsərində İmam Qəzalinin 404 kitabının adını çəkir. Brokelman adlı başqa bir tədqiqatçı isə "Geschichte Der Arabischen Litteratur" adlı əsərində İmam Qəzalinin 75 əsərinin siyahısını vermişdir. 1959-cu ildə dörd alman professor İmam Qəzalinin kitablarını oxuyaraq İslam dininə heyran olmuş və kitablarını alman dilinə tərcümə edərək İslamı qəbul etmişlər.

Məşhur əsərlərindən bəziləri bunlardır: "İhyau-ülumiddin", "Kimyayi-səadət", "Cəvahirül-Quran", "Qəvaidül-əqaid", "Kitabül-iqtisad fil İtiqad", "İlcamül-əvam ən ilmil-kəlam", "Mizanül-əməl", "Dürrətül-fahirə", "Əyyuhəl-vələd", "Qistəsül-müstəqim", "Təhafətül-fəlasifə", "Məqasidül-fəlasifə", "Əl-münkizü əniddəlal", "Əl-fətəva", "Xülasatüt təsnif fit-təsəvvüf", "İlcamül-əvam".

## İmam Qəzalidən...

"Bəlaya şükür etmək lazımdır. Çünki küfür və günahlardan başqa bəla yoxdur ki, içində sənin bilmədiyin yaxşılıq olmasın! Allah sənin yaxşılığını səndən yaxşı bilir".

"Bir söz deyəcəyin zaman düşün! Əgər o sözü söyləmədikdə məsul olacaqsansa, söylə. Yoxsa sus!"

"Allahu-Təalanın hər etdiyimizi, hər düşündüyümüzü bildiyini unutmamalıyıq. İnsanlar bir-birinin zahirini görür. Allahu-Təala isə həm zahirini, həm daxilini görür. Bunu bilən insanın işləri və düşüncələri ədəbli olur".

"Ey nəfsim, "Sonra tövbə edərəm və yaxşı əməllər edərəm", - deyirsənsə, ölüm daha əvvəl gələ bilər, peşman olub qalarsan. Sabah tövbə etməyi bu gün tövbə etməkdən asan hesab edirsənsə, aldanırsan".

"Əcdadlarının dindarlığı ilə xilas olacağını zənn edənlər atalarının yeməsilə öz qarınlarının doyacağını, onların içməsilə susuzluqlarının keçəcəyini, onların oxuması ilə bilikli olacağını hesab edənlərə bənzəyirlər".









# İslam torpaqlarında baş verənlər axırzaman əlamətidir

Axırzaman… Bu anlayış bir çox insana tanış olmaya bilər. Bu səbəbdən, əvvəlcə bu anlayışı qısa şəkildə açıqlayaq. Axırzaman son dövr mənasını verir və İslam qaynaqlarına görə, qiyamətə yaxın bir zamanda Quran əxlaqının bütün dünyaya hakim olduğu dövrü ifadə edir. Bu dövrdə insanların rahat şəkildə yaşamaları üçün hər cür şərait mövcud olacaq. Əvvəlki dövrlərdəki çətinliklərin yerini bolluq, bərəkət və ədalət tutacaq. Əxlaqsızlıqlar, saxtakarlıqlar, degenerasiya ortadan qalxacaq. Bu dövr bütün inanan insanların əsrlərlə gözlədikləri İslam əxlaqının hakim olduğu müqəddəs dövr olacaq.

Peyğəmbərimizin (s.ə.v) hədislərində axırzaman ətraflı şəkildə izah edilir. Ondan sonra bir çox İslam mütəfəkkirləri də axırzaman haqqında əhəmiyyətli məlumatlar vermişlər. Bu izahlara baxdığımız zaman axırzamandan əvvəl dünyada böyük pozulma və qarışıqlığın yaşandığını, ancaq sonradan əsl din əxlaqının yaşanması ilə qurtulduğunu, bolluq və bərəkətin olduğunu, texnologiyanın, bütün nemətlərin insanların xidmətinə verildiyini, elmin, tibbin və incəsənətin inkişaf etdiyini görürük.

Axırzamanın ilk dövrlərində dünya Allahı inkar edən bəzi fəlsəfi sistemlərlə degenerasiyaya uğrayacaq. İnsanlar yaradılış məqsədindən uzaqlaşacaq, bunun nəticəsində mənəvi boşluq və əxlaqi pozuntu olacaq. Böyük fəlakətlər bir-birini təqib edəcək, müharibələr, qarşıdurmalar yaşanacaq və insanlar “Necə xilas olacağıq?” sualına cavab axtaracaqlar. İslam torpaqlarındakı qarşıdurmalar da bu qəbildəndir. Bu gün dinini azad yaşamaq və ibadətlərini yerinə yetirmək istəyən müsəlmanlar təzyiq altında yaşayır, qadınlar, uşaqlar, yaşlılar mərhəmətsiz şəkildə qətlə yetirilir. Müsəlmanları qorxutmaq və İslam dünyasında böyük birlik meydana gəlməsinə mane olmaq istəyən anti-islami qüvvələr isə zorakılığı get-gedə artırırlar. Ancaq bu müharibə və qarşıdurma dövrünün ömrü çox qısa olacaq. Çünki Allah axırzamanın böyük qarışıqlığı içindəki insanları qurtaracağını və onları hz. Mehdi (ə.s) vasitəsilə müqəddəs dövrə çatdıracağını vəd edir.



Hz. İsanın (ə.s) yenidən dünyaya gələcəyi, hz. Mehdinin (ə.s) çıxacağı dövr müsəlmanlar üçün qışın bitdiyi, baharın başladığı bir dövr olacaq. Hədislərdə o dövrdə silahların susacağının bildirilməsi yer üzündə sülhün bərqərar olmasını bildirir. Bu hədislərdən bəziləri belədir:

Qab su ilə dolduğu kimi, yer üzü sülhlə dolacaq. Heç kim arasında düşmənlik qalmayacaq. Bütün düşmənliklər, boğuşmalar, həsədlər bitəcək.

Müharibə də ağırlıqlarını (silah və vəsaitlərini) buraxacaq.

Hədislərdə də bildirildiyi kimi, Qızıl dövrdə əvvəldən aralarında qarşıdurma olan xalqlar arasında qardaşlıq yaşanacaq, hər cür müharibənin yerini sülh, dostluq və sevgi tutacaq.

# Fosillər Təkamülü TƏKZİB EDİR





## ÇƏYİRTKƏ

**Fosil No: SI0002**
**Yaş: 108-92 milyon il**
**Dövr: Təbaşir**
**Tapıldığı yer: Santana, Siara, Braziliya**

Şəkildəki 108-92 milyon illik çəyirtkə fosilləri çəyirtkələrin heç dəyişilmədiklərinin sübutudur. Milyon illərlə eyni olan çəyirtkələr canlıların təkamül keçirmədiyini, yaradıldığını göstərir.

## QIRXAYAQ

**Fosil No: SI0012**
**Yaş: 300 milyon il**
**Dövr: Karbon (daş kömür)**
**Tapıldığı yer: Frensis Krik, İllinoys, ABŞ**

Şəkildəki 300 milyon illik qırxayaq fosilidir. 300 milyon il əvvəl yaşayan qırxayaqların bugünkü qırxayaqlardan heç bir fərqi yoxdur. Digər bütün canlılar kimi qırxayaqlar da təkamül keçirməyib, yaradılıblar.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.



Yuxarıdakı 7 min illik divar rəsmindəki fleyta çalan insan fiquru həmin dövrdə yaşayan insanların musiqi biliyinə və mədəniyyətinə, yəni inkişaf etmiş sivilizasiyaya malik olduğunu göstərir

# 35 MİN İLLİK FLEYTA TARİXİN TƏKAMÜLÜ İDDİASINI TƏKZİB EDİR

Almaniyadakı arxeoloji qazıntılarda tapılan 35 min illik fleyta bu günə qədər tapılan digər fleytalar kimi tarixin erkən dövrlərində yaşayan insanların incəsənət zövqünə malik olduğunu göstərir.

Arxeoloq Nikolas Konardın 12 ayrı hissə şəklində tapdığı qızıl qırğı sümüyündən düzəldilmiş bu fleyta Cənubi Almaniyadakı Hohl Fels mağarasından çıxarılmışdır. 5 dəlikli fleyta kövrək quruluşda olduğuna görə, arxeoloq Konard bu alətin funksionallığını yoxlamaq üçün eyni növ sümükdən həmin fleytadan düzəltmişdir. Bu fleyta ilə qərb musiqisinin əsas forması olan yeddi not ölçüsündən istifadə edərək Amerika Milli Marşını çalmışdır.

Arxeoloqlar həmin mağarada fleyta ilə yanaşı, mamont dişindən düzəldilmiş altı heykəlcik də tapıblar. Hollandiyanın Leyden Universitetindən arxeoloq Uil Robroeks 35 min il əvvəl Avropada inkişaf etmiş sivilizasiyanın hakim olduğunu və bu insanların həyat tərzi ilə dövrümüzdəki insanların həyat tərzində bənzərlik olduğunu açıqlamışdı. Arxeoloq Robroeks bu fleytaları müasir insanların da düzəldib çaldığını deyir. Kanadanın Viktoriya Universitetindən Eypril Nouel də bu tapıntıların inkişaf etmiş texnika və ənənənin sübutu olduğunu açıqlamışdır.

Bu arxeoloji tapıntılar darvinistlərin insanların meymunlarla ortaq əcdaddan gəldikləri iddiasını bir daha təkzib edir. Darvinistlər on minlərlə il əvvəl qırıq-qırıq səslər çıxarıb heyvanı həyat tərzi keçirdiyini iddia etdikləri meymunabənzər varlıqların sürü şəklində yaşadıqlarını və bu yolla ağıllı, sosial davranışlar qazandığını iddia edirlər. Halbuki, sürü halında yaşayan təkcə bu "ibtidai varlıqlar" deyil. Qorillalar, şimpanzelər, meymunlar və bir çox heyvan növü sürü şəklində yaşayır. Ancaq bunların heç biri insanlar kimi ağıllı və sosial davranışlar qazanmayıb. Heç biri yeddi not ölçüsündə fleyta düzəltməyib, heykəltəraşlıqla məşğul olmayıb, bir sözlə, ağıl və bacarıq nümayiş etdirməyib. Çünki ağıllı və şüurlu davranış ancaq insanlara xas xüsusiyyətdir. Keçmişdən indiyə qədər izi qalmış on minlərlə illik bu əsərlər də bizim kimi ağıllı və şüurlu, hesablama, planlaşdırma, yaradıcılıq qabiliyyəti olan, Allahın ruh verdiyi insanlar tərəfindən hazırlanmışdır.